UOT 94(479.24)
https://doi.org/10.59849/2710-0820.2026.1.216

**Tofiq Mustafazadə**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya*
*İnstitutunun "Azərbaycanın beynəlxalq əlaqələri"*
*şöbəsinin müdiri, t.e.d., prof.*
*ORCİD:0000-0001-7108-6348*
*tofig2014@rambler.ru*
*https://orcid.org/0000-0001-7108-6348*

# QUBALI FƏTƏLİ XANIN AZƏRBAYCANI BİRLƏŞDİRMƏ SİYASƏTİ
## (Tarixi-müqayisəli təhlil)

***Açar sözlər:*** *Azərbaycan, Qubalı Fətəli xan, Fətəli xan Əfşar, Qarabağlı İbrahimxəlil xan, "Abbas Mirzə"*

### I. Quba xanlığının yaranması və müstəqilləşməsi

**Quba xanlığının yaranması.** Quba xanlığı yarımmüstəqil inzibati vahid – «ölkə» kimi hələ XVII yüzilliyin son rübündən mövcud olmuşdur. Bu zamana qədər Quba xanlarının nəsil şəcərəsi Qaytaq usmilərinə gedib çıxır**.** Bu zamana qədər Qaytaq usmiliyini iki nəsil idarə edirdi: 1.Məcalisdə yaşayan nəsil; 2.Yengikənddə yaşayan nəsil. Müəyyən vaxt ərzində hər nəslin bir nümayəndəsi Qaytaqı idarə edirdi. Lakin sonuncu olaraq usmiliyi idarə edən Yengikənd nəslinin nümayəndələri hakimiyyəti Məcalisdəki nəslə ötürmək istəməyərək basqın edib Məcalisdəki nəslin bütün kişi üzvlərini qətlə yetirmiş,yalnız Hüseyn adlı bir uşaq xilas ola bilmişdi. Bir müddət dağlarda gizlənən Hüseyn hədd-buluğa çatdıqda Səfəvilərin paytaxtı İsfahana yollandı. Burada Şah İ Süleymanın (1666-1694) qəbuluna düşməyə nail olan Hüseynəli Hüseyn şahda özünə qarşı rəğbət yarada bilmiş, Şah ona xan rütbəsi verərək Quba və Gülhanın irsi idarəçiliyinin tapşırmlşdı (Bakıxanov, 1991, 122). Quba xanları daxili idarəçilikdə müstəqil idilər, xəzinəyə heç bir ödəniş etmirdilər və yalnız hərbi zərurət olduqda öz çərik dəstəsi ilə Dərbənd sultanının, yaxud Şirvan xanının komandasına qoşulmalı idlər.

Hüseyn xan 1689-cu ildə Qubada vəfat etdikdə (Bakıxanov, 1991, 122-123) onu oğlu Əhməd əvəz etmişdir. Sonuncu, XVII yüzilliyin axırlarına yaxın qubalıların və Qaytaqdakı tərəfdarlarının köməyi ilə Başlını tutub özünü usmi elan etsə də bir müddət sonra Ulubəy usminin oğlu Əhməd xan qoşun toplayıb Başlını və Qaytağın bir hissəsini geri aldı. Qubalı Əhməd xan Məcalisə çəkilmiş və burada düşmənlərinin fitvası ilə öz nökərlərindən biri tərəfindən öldürülmüşdü (Bakıxanov, 1991, 123).

Əhməd xanı hakimiyyətdə azyaşlı oğlu Sultan Əhməd xan əvəz etmişdir. A.A.Bakıxanov 1711-ci ildə Hacı Davudun təhriki ilə Sultan Əhməd xanın qaynatası Hacı Qayıb Alpanlının Sultan Əhməd xana qarşı qiyam etdiyini, Hacı Davudun yardıma göndərdiyi əl-Curukun dəstəsi ilə birlikdə Xudat qalasını aldığını yazır. Bu zaman Sultan Əhməd xan və yaxınları qətlə yetirilmişdi (Bakıxanov, 1991, 123). Yalnız bu hadisənin 1711-ci ildə deyil, 1718-ci ildə baş verdiyini qeyd etməliyik. Digər mənbələr də Sultan Əhmədin öz qaynatası tərəfindən və yaxud onun təhriki ilə öldürüldüyünü təsdiq edirlər (Butkov, 1803, I his, 9), Tərəfdarları xanın kiçik yaşlı oğlu Hüseynəlini xilas edərək Samurun yuxarı axarında yerləşən Tahircar kəndinə (Bakıxanova görə Axtıya) aparmışlar (РГВИА, f. 1846, iş. 18474, v.48;27).

1726-cı il oktyabrın 20-də Dərbəndə gəlmiş qubalı Hüseynəli bəy Rusiya himayəsini qəbul etdiyini bildirdi və sədaqət andı içdi (РГВИА, f. 1846, iş. 18474, v.101 və a. ü.).

Azərbaycan Əfşarlar tayfasına mənsub istedadlı sərkərdə Nadirin yorulmaz fəaliyyəti nəticəsində Şahlıq səltənəti yenidən dirçəldikdə Hüseynəli xan xarici qüvvələrin Azərbaycandan sıxışdırılıb çıxardılması siyasətini dəstəklə-

diyindən Nadir Əfşar Azərbaycana ilk yürüşü zamanı 1734-cü ildə şah Hüseynəli xanın idarəçiliyinə əlavə olaraq Salyanı da vermişdi (Butkov, 1803, I his., 125). Doğrudur, bir il keçməmiş şah Salyanın idarəçiliyini Quba xanının səlahiyyətindən çıxarmışdı (Fərzəlibəyli, 2001, 42).

**Quba xanlığının müstəqilləşməsi.** Nadir şah Əfşarın hakimiyyətinin son illərində Azərbaycanda şah istibdadına qarşı xalq hərakatı geniş vüsət aldığından 1747-ci ilin iyun ayında Nadir şah əyanların sui-qəsdi nəticəsində həlak olan kimi bütün ölkədə şah hakimiyyəti ləğv olundu. Lakin, o zaman ölkənin ayrı-ayrı bölgələri arasındakı iqtisadi əlaqələrin zəifliyi Azərbaycanda vahid müstəqil dövlət qurulması üçün zəmin yaratmadığından və bəzi başqa səbəblərdən Azərbaycanda 20-yə qədər xırda feodal dövlət qurumları-xanlıqlar təşəkkül tapdı. Bunlardan ən iriləri Qarabağ, İrəvan, Urmiya, Təbriz və Şəki xanlıqları idi.

Quba xanlığı ərazisinə və əhalisinin sayına görə öncül yerdə durmasa da, güclü potensialı ilə fərqlənmişdi. XVIII əsrin ortalarında bəzi məlumatlara görə Quba xanlığı 2600 həyəti olan 100 kənddən ibarət idi (Butkov, 1803, I his., 249; Маркова, 1966, 185). XIX əsrin əvvəllərində ərazisi 10.500 kvadrat verst idi (СПб., 1836, 21). Şimalda Dərbənd və Qazıqumuq, qərbdə Şəki, cənubda Bakı və Şamaxı xanlıqları, şərqdə Xəzər dənizi ilə əhatə olunurdu. P.Q.Butkovun 1796-cı ildə yazdığına görə Quba xanlığının ərazisi şimaldan cənuba 126 verstə qədər, şərqdən qərbə 84 verstə qədər uzanırdı (Butkov, Выдержки из «Проекта отчета о персидской экспедиции в виде писем». ИГ и ЭД,сс. 200-208; ПФАРАН, ф.89, оп.2, д. 41,v.10-198,126-132,139-142). Bəzi məlumatlara görə 76878 nəfər əhalisi var idi (Абдуллаев, 1965, 110-111).

Nadir şahın Azərbaycana viranedici yürüşləri zamanı və feodal-ara mübarizəsinin gücləndiyi sonrakı illərdə Quba xanlığı digər Azərbaycan torpaqlarına nisbətən az zərər çəkmişdi. Quba xanlığında çoxlu əlçatmaz qalalar olduğundan, əhali lazım gəldiyi təqdirdə sığınacaq tapa bilirdi.

Bütün bu amillər birlikdə Azərbaycanın düşmən hücumlarından və feodal-ara mübarizəsindən daha çox zərər çəkmiş cənub və cənub-şərq düzənlik rayonlarından əhalinin Quba xanlığına axıb gəlməsinə səbəb olurdu. Bu isə xanlığın iqtisadi gücünün artmasına şərait yaradırdı. 1757-ci ildə Muğan çölündən bir çox şahsevənin, habelə Dərbənd və Şamaxı ətrafından bir sıra ailələrin Quba xanlığına köçürülməsi xanlığın hərbi gücünün artmasına kömək etmişdi (Butkov, 1803, I his,s.249; Серебров, 1958, 183).

İqtisadi və hərbi qüdrətini artıran Quba xanlığı tezliklə digər xanlıqların ərazilərini özünə birləşdirməyə başladı. 1757-ci ildə Hüseynəli xanın vəliəhdi, oğlu Fətəli bəy Salyana yürüş edərək əvvəllər Quba xanlığının tərkibində olmuş, lakin XVIII əsrin ortalarında şəraitdən istifadə edərək müstəqilləşmiş Salyana yürüş etdi. Qeyd edək ki, bir qədər əvvəl bu zaman Salyanın hakimi olan İbrahim xan Rudbarlının hakimiyyətindən narazı olan Salyan feodalları gizli surətdə Quba xanı ilə əlaqə yaratmış və İbrahim xanı hakimiyyətdən kənarlaşdırıb, Salyanın idarəsini ayrısına tapşırmağı xahiş etmişdilər. İbrahim xan qaçıb Rudbarda gizləndi. Salyan yenidən Qubaya birləşdirildi (Hacinski, 1959, 8; Алкадари, 1929, 187).

Quba xanı tərəfindən təyin edilən Salyan hakimi oranı sultan titulu ilə idarə etməyə başladı. Eyni zamanda Quba xanlığı Şamaxı və Bakı xanlıqlarının arxasına çıxış və onlara təzyiq göstərmək imkanı əldə etdi (Абдуллаев, 1965, 198-199).

## II. Fətəli xanın birləşdirmə siyasətinin ilk mərhələsi

**Fətəli xanın birləşdirmə siyasətinə başlaması.** 1758-ci ildə Hüseynəli xan vəfat etdikdə yerinə keçmiş 22 yaşlı oğlu Fətəli xan heç bir xüsusi təhsil almasa da olduqca zəkalı bir dövlət xadimi, bacarıqlı sərkərdə və mahir diplomat idi. O, ilk olaraq böyük strateji əhəmiyyəti olan Dərbənd xanlığını tutmaq qərarına gəldi. Xəzər dənizi sahillərində yerləşən Dərbənd xanlığı şimalda Darbaq, cənubda Samur çayları ilə, qərbdə isə Tabasaranla əhatə olunmuşdu (Козубский, 1906, 91).* Sahəsi cəmi 680 kvadrat verst

* E.İ.Kozubskinin yazdığına görə Nadir şahın qətlindən azca əvvəl dağıstanlılar qiyam edərək Dərbənd şəhərini mühasirəyə almışdılar. Dərbənd hakimi Qəni xan dağıstanlılardan, daha çox da Dərbənd sakinlərindən ehtiyat edərək tabeçiliyindəki hərbi dəstə ilə şəhərdən çıxıb Qubaya hərəkət etmişdi, lakin burada üsyan etmiş əhali tərəfindən öldürülmüşdü. Əhali XVIII əsrin 20-30-cu illərində Dərbənd hakimi olmuş İmamqulu xanın

(Обозрение российских Обозренвладений за Кавказом, в статистическом, этнографическом и финансовом отношениях. ч. 1, СПб., 1836, 151) və əhalisi az olan bu xanlığın qüvvəsi o qədər də çox deyildi. Digər tərəfdən Dərbənd əhalisinin onlardan ağır vergilər alan Məhəmməd Hüseyn xandan narazı olması və Fətəli xandan yardım istəmələri Dərbəndi ələ keçirmək üçün əlverişli şərait yaradırdı. Məhəmməd Hüseyn xanın qardaşı Tahir bəyin təhqiramiz hərəkətlərindən qəzəblənmiş dərbəndlilər Fətəli xanla əlaqə yaradıb ondan yardım istəmişdilər (Бакиханов, 1991, 158). Dağıstanın feodal hakimlərinin də Dərbəndə maraqları olduğundan oranın zəbt edilməsi Quba xanlığının əleyhinə güclü düşmən koalisiyasının yaranmasına səbəb ola bilərdi. Bir yandan da Quba xanlığı ilə Şamaxı xanlığı arasında düşmən münasibətlər olduğundan çox ehtiyatlı hərəkət etmək lazım idi (Козубский, 1906, 92).** Fətəli xan Dağıstan feodallarının bir hissəsinə müəyyən güzəştlər vəd etməklə onları öz tərəfinə çəkdi. Tarku şamxalı, usmi Əmir Həmzə, Tabasaran kadisi ilə ittifaq bağladı; Qazıqumuqlu Məhəmməd xanı isə bitərəfləşdirdi (Абдуллаев, 1958, 89).

1759-cu ildə Fətəli xan qoşunla qısa müddətli mühasirədən sonra Dərbəndi tutdu. Dərbənd xanlığl ləğv edilərək Quba xanlığına birləşdirdi. Dərbənd şəhəri daha mühüm hərbi-strateji əhəmiyyətə malik olduğu üçü Quba xanlarının əsas iqamətgahına çevrildi. Sabiq Dərbənd hakimi Məhəmməd xan Fətəli xanın əmri ilə bütün ailəsilə Bakıya köçərək, ömrünün sonuna qədər orada yaşadı (Hacinski, 1959, 23).

**Bakı xanlığının asılı hala salınması.** Dərbəndi də özünə birləşdirməklə xeyli güclənmiş Quba xanlığı Azərbaycanda mühüm rol oynamağa başladı.

Fətəli xanın planlarında Şamaxı xanlığı mühüm yer tuturdu. Lakin o, əvvəllcə zəngin, hərbi cəhətdən isə Şamaxıdan çox zəif olan Bakı xanlığını tabe etmək və bununla da Şamaxı xanlığı ilə həlledici mübarizə üçün qüdrətini artırmaq qərarına gəldi.

Qeyd etdiyimiz kimi Bakı xanlığı iqtisadi cəhətdən zəngin (ilk növbədə neft və duzla) idi. Bakı o zaman Xəzər dənizi sahilində ən möhkəm və əlverişli liman şəhəri idi. Abşeron yarımadasını əhatə edən Bakı xanlığı cəmisi 34 kəndi əhatə edən iki naiblikdən ibarət idi: Bakı xanının cəmi 500-1000 nəfər döyüşçüsü vardı.

Fətəli xan Bakıya əvvəlcə iqtisadi zərbə endirmək qərarına gəldi. Quba xanlığı Rusiya ilə ticarəti öz limanlarına-Dərbənd, Niyazabad və Salyana yönəldərək Bakını iqtisadi məngənəyə aldı. Eyni zamanda Fətəli xan diplomatik hərəkət edərək Bakı xanlığını xarici düşmənlərdən müdafiə etməyi öz öhdəsinə götürdü.

Fətəli xan "nikah diplomatiyasından» istifadə edərək Bakı xanlığını dinc yolla öz nəzarəti altına aldı. 1767-ci ildə Fətəli xan bacısı Xədicə Bikəni hələ Mirzə Məhəmməd xanın dövründə Bakını idarə edən oğlu Məlik Məhəmməd bəyə verdi. Dövrünün ağıllı qadınlarından biri olan Xədicə Bikə qardaşının məsləhətləri ilə Bakı xanlığının idarəçilik işlərinə qarışır, həmişə Quba xanlığının xeyrinə çalışırdı. Məlik Məhəmməd xan müxtəlif işlərlə bağlı Bakıdan çıxdıqda xanlığı Xədicə Bikə idarə edirdi. Məsələn, əri iki il Qarabağ xanının əsiri olduğu vaxt, habelə Məkkəyə ziyarətə getdiyi zaman Xədicə bikə Bakını idarə etmişdir. Rus hökuməti tərəfindən İrana konsul təyin edilən İ.Tumanovski 1780-ci ildə Bakıdan Ənzəliyə gedərkən Xədicə Bikənin hərəkətlərini müşahidə edərək yazmışdı ki, dövlət hakimiyyətinə başçılıq onun tərəfindən həyata keçirilir. Rəsmən Bakıda xanlıq qalsa da faktiki olaraq o Qubaya tabe edilmişdi. 1770-ci ildə Bakıda olmuş S.Q.Qmelin Saray kəndində Quba xanlığının qarnizonunun yerləşdiyini və Bakı xanlığının Quba xanının himayəsi altında həmişə Fətəli xanın vassal asılılığında olduğunu bildirirdi. O, Fətəli xana illik xərac verir, bütün hərbi yürüşlərində iştirak edirdi. Fətəli xan 1780-ci ildə Məlik Məhəmmədin oğlu Mirzə Məhəmmədi Bakı xanı elan etmiş, Məlik Məhəmmədin anası Xədicə Bikə isə qəyyum olmuşdu (Абдуллаев, 1965, 210-211).

oğlu Məhəmməd Hüseyn sultanı xan seçmişdi (Козубский. История города Дербента. Темирхан-Шура: 1906, с.91).

** Fətəli xan Dərbənd bəyləri ilə gizli əlaqə yaratdı, onlara hədiyyələr göndərdi. Bəylərin bir hissəsi Qubaya köçdülər. Bu yolla Dərbənddə özünə xeyli tərəfdar qazanan Fətəli xan əvvəlcə Dərbənd xanının Samur çayından cənubdakı mülklərini: Müşkür, Niyazabad, Şabran, Rustov və Beşbarmağı zəbt etdi. Sonra Ulus mahalını ələ keçirdi. Daha sonra isə Dərbənd qalasını mühasirəyə aldı (Козубский. История города Дербента. Темирхан-Шура: 1906,с.92).

Fətəli xana rəsmən müraciət edənlər onu «Quba, Dərbənd, Bakı və Salyan rəisi» adlandırır, Rusiya dövlətinin ticarət öhdəçiliyində onun adı «Quba, Dərbənd və Bakı hakimi» kimi yazılırdı (Абдуллаев, 1958, 102-103). Səciyyəvi haldır ki, Bakı xanı tərəfindən sıxışdırılan rus tacirlərini müdafiə etmək tapşırığı almış rus admiralı Voynoviçlə danışıqları Məlik Məhəmməd xan yox, Fətəli xan aparmışdı. Quba xanlığı ilə Rusiya arasında 1782-ci ildə ticarət sazişi imzalanmışdı. Fətəli xanın 1782-ci il avqustun 26-da imzaladığı təəbhüddə deyilirdi ki, onun hakimiyyəti altında olan bütün yerlərə-Dərbəndə, Bakıya, Salyana, Rusiya ticarət gəmilərinin yan aldığı hər bir yerə xəbər verilməlidir ki, oradakı xanlar, sahibkarlar və xanın tabeliyində olan başqa adamlar Rusiya təbəələrinin işlərinə əsla qarışmasınlar (РГВИА,ф. 52, д. 288, v.13-14).

Bakı xanlığını özündən asılı vəziyyətə salıb uğur qazanan Fətəli xan eyni zamanda əvvəllər Xədicə bikəni vəd etdiyi qaynı Qaraqaytaq usmisi Əmir Həmzəni barışmaz düşməninə çevirdi. Bəzi mənbələrə görə qəzəblənmiş Əmir Həmzə Dərbəndi ələ keçirib Narınqalada möhkəmlənibmiş. Yalnız Avar xanının vasitəsi ilə Əmir Həmzə Dərbəndi tərk etmişdi və əvəz kimi Molla Xəlilli kəndini almışdı (Серебров, 1958, 201-202).

**Şamaxı xanlığının ələ keçirilməsi.** Bakı xanlığının tabe edilməsi ilə şimal-şərqi Azərbaycan torpaqlarının birləşdirilməsinin birinci mərhələsi başa çatdı. İkinci mərhələdə Şamaxı və Cavad xanlıqlarını birləşdirmək uğrunda mübarizə getmişdir. Şamaxını almaq uğrunda mübarizə çox amansız və qanlı oldu.

Şamaxı xanlığı mühüm hərbi-strateji mövqeyə malik olub şimal-şərqdə Quba xanlığı ilə, şərqdə Bakı, cənub-qərbdə Qarabağ xanlıqları ilə, cənubda Kür çayı ilə həmsərhəd idi. Şamaxı xanlığının mərkəzi Şamaxı şəhəri məlum olduğu kimi 1734-cü ildə Nadir tərəfindən dağıdılmış, əhalisi Yeni Şamaxı adlandırılan yerə (Ağsuya) köçürülmüşdü. Əsrin ikinci yarısında şəhər bərpa edilmişdi (Джафаров, 1955, 5).

O dövrdə Şamaxı xanlığının hərbi-siyasi qüdrəti barədə müxtəlif məlumatlar vardır. Bəzi müəlliflər Şamaxı xanlığının 2 mindən çox döyüşçüsü olmadığını, bəziləri isə, 5-6 min döyüşçünün olduğunu, şəhərdə 40 çuğun topun olduğunu yazırdılar (Абдуллаев, 1965, 213).

Quba və Şamaxı xanları arasında mübarizə hələ Quba xanının Dərbəndə hücumundan əvvəl başlamışdı. O zaman Şamaxı ərazisində iki xanlıq mövcud idi. Biri mərkəzi Köhnə Şamaxı olan və sərkərlər sülaləsinin başçılıq etdiyi, digəri isə mərkəzi Yeni Şamaxı olan və Hacı Məhəmmədəli xanın başçılıq etdiyi xanlıq. Hacı Məhəmmədəli Quba ilə müttəfiq münasibətlərində, sərkərlər isə düşmən münasibətdə idilər. 1761-ci ildə Məhəmməd Səid və Ağası qardaşları Yeni Mamaxını ələ keçirib xanlıqda ikihakimiyyətliləyə son qoydular.

Quba xanı Şamaxı xanından onun ərazisini dağıstanlıların hücumundan qorumaq üçün ildə 10 min manat tələb etmiş və mənbələrin məlumatına görə Şamaxı xanı həmin məbləği 4 il ödəmişdi (Бутков, 1803, 253).

Bir müddətdən sonra Şamaxı hakimləri Quba xanına xərac verməkdən imtina etdilər və iki xanlıq arasında münasibətlər pisləşdi. Nəticədə 1765-ci ildən 1769-cu ilədək davam edən 4 illik Quba-Şamaxı mübarizəsi başladı. Şəkili Hüseyn xanın Şamaxıya kömək etməsi Fətəli xanın uğur qazanmasına mane olurdu.

Quba xanının hərbi qüdrətini görən Şamaxı hakimi Məhəmməd Səid xan onunla açıq döyüşə girməyə cürət etmədi. Qubanın köhnə müttəfiqləri ilə yanaşı Qazıqumuq və Qaraqaytaqdan muzdlu döyüşçülər də Fətəli xanın sərəncamında idilər. Quba qoşunları asanlıqla Müci qalasını tutdular (АВПРИ, фонд 77, опись 1,1767 г., дело 3, v.6).

Bakıdakı rus konsulu M.Sulyakov Xarici İşlər Kollegiyasına 13 sentyabr 1767-ci il tarixli məktubunda bu məsələ ilə bağlı yazırdı ki, Fətəli xan Bakı xanı ilə sövdələşib, öz təbəələrindən 12 min nəfərlik qoşun toplayaraq Şamaxıya hərəkət etmiş və Şamaxının yaxınlığındakı dağda yolu çox dar olduğu üçün keçilməz sayılan Müci adlı qalanı fənd işlədərək çox asanlıqla və heç bir itki vermədən ələ keçirmişdir. Konsulun məlumatına görə Şamaxı xanı hərbi cəhətdən üstünlüyə malik idi və 25 minə qədər döyüşçü toplaya bilərdi, ancaq Fətəli xanla döyüşə girməyə cəsarət etməmişdir, çünki bir çox Şamaxı feodalları ona sadiq deyildilər və Şamaxı hakimi ehtiyat edirdi ki, döyüş zamanı onlar düşmən tərəfə keçə bilərlər. Məhz buna görə də Məhəmməd Səid xan ətraf xanların vasitəçiliyi ilə Quba xanı ilə barışmışdır. Fətəli

xan Müci qalasını tərk etmiş və ələ keçirdiyi qəniməti geri qaytarmışdır (АВПРИ, ф.77, оп. 1, 1767 г., д. 9, v.157). 1768-ci ilin əvvəllərində Quba və Şamaxı nümayəndələri arasında danışıqlar getdi və yeni saziş bağlandı (АВПРИ, ф.77(СРП), оп.1, 1768 г., д. 17, v.178).

Lakin müqavilə öhdəlikləri yerinə yetirilmədi. Şəkili Hüseyn xanın Şamaxı xanına kömək etməsi Fətəli xanın uğur qazanmasına mane olurdu. Yaranmış vəziyyətdən çıxış yolu arayan Fətəli xan Hüseyn xanla Məhəmməd Səid xanın arasını vurdu və birinci Quba xanının tərəfinə keçdi. Fətəli xan Şamaxıya qarşı yeni yürüşə hazırlaşmağa başladı. Onun qoşunlarının tərkibinə daimi hissələrlə yanaşı, Dərbənd, Quba, Bakı və Salyandan toplanmış çərik dəstələri, habelə Tabasaran və Aquşadan gəlmiş muzdlular daxil idi. 1768-ci ilin mayında Quba qoşunları Şamaxıya doğru hərəkət etdilər. Eyni zamanda digər tərəfdən Quba xanının müttəfiqi şəkili Hüseyn xanın qoşunları hücum edirdi (АВПРИ, ф.77(СРП), оп.1, 1768 г., д. 17, v.178). Qoşunların səfərbər edilməsi və hərəkəti elə sürətlə baş verdi ki, şamaxılılar müdafiəni təşkil edə bilmədilər. Müttəfiq qoşunları Şamaxı xanlığının bütün ərazisini tutdular. Şamaxı şəhəri mühasirəyə alındı. Şəhərdə aclıq başladı. Şamaxı şəhəri uzun mühasirəyə tab gətirmədi və 1768-ci ilin iyununda təslim oldu (АВПРИ, ф.77(СРП), оп.1, 1768 г., д. 17, v.84).

Şamaxı xanları Fətəli xana yox, Şəki xanına təslim olmağı üstün tutdular. Son dərəcə ehtiyatlı bir şəxs olan Hüseyn xan bunu Fətəli xana bildirdi. Quba xanı ona cavan Ağasının gözlərini çıxarmağı, daha yaşlı Məhəmməd Səid xanı isə həbs etməyi məsləhət gördü. Hüseyn xan belə də hərəkət etdi. Məhəmməd Səid xan həbs edildisə də azacıq sonra yaşı çox olduğuna görə (o zaman onun 60 yaşı vardı) azadlığa buraxıldı (Абдуллаев, 1965, 222).

Fətəli xan Ağası xanı oğlanları ilə birlikdə Bakıya aparmağı əmr etdi, özü isə Şamaxıya gəlib, yeznəsi Məhəmməd Səid xanın oğlu Məhəmməd Rza bəyi formal olaraq Şamaxı xanı elan etdi, bütün işlərin idarəsi isə Fətəli xanın əlində idi (Hacinski, 1959, 2).

Məhəmməd Səid xanın digər oğlanları Əsgər və Qasım bəylər, həmçinin Ağası xanın oğlu Mustafa bəy vəziyyəti belə görüb Qarabağa qaçdılar. Lakin, Fətəli xanla yaxşı münasibətdə olan Ərəş sultanı Şəhabəddin onları hiylə yolu ilə Ərəşə gətirib həbs etdi. Bir qədər sonra dustaqları Fətəli xanın elçisi Məhəmməd Kərim bəy və Şəki xanının nümayəndəsi Hacı Səid bəyin müşayiəti ilə Şamaxıya göndərdi. Şəki və Şirvan sərhəddində olan Göyçay sahilində, Fətəli xanın guya Şəkiyə hücuma keçməsi barədə (Бакиханов, 1991, 167).

Fətəli xan Şamaxı xanlığının ərazisini Hüseyn xanla bölüşdürdü: Sədari və Qəsari mahalları Yeni Şamaxı ilə birlikdə Şəki xanına, xanlığın yerdə qalan hissəsi isə Köhnə Şamaxı ilə birlikdə Quba xanına çatdı. Bu yerlərin idarə olunması üçün onlar öz naiblərini təyin etdilər. Köhnə Şamaxının naibi Fətəli xanın qardaşı Abdulla bəy oldu (Бакиханов, 1991, 160; Azərbaycan tarixi, 1996, 526). Şamaxının idarəsini Fətəli xan öz qardaşı Abdulla bəyə tapşırmış, lakin sonuncu özbaşına vergiləri artırır, əhalini incidirdi. Nəticədə 1769-cu ildə Şamaxıda qiyam qalxdı. Qiyamçılar şəkililərin yardımı ilə Şamaxıda Quba hakimiyyətini ləğv etmək istəyirdilər.

Rus konsulluğunun əməkdaşı İvan Matveyev və Həştərxan taciri Stepan Şaripinin prikazçiki Yeqor Zamyatin 1768-ci il 10 sentyabr tarixdə konsul M.Sulyakova yazırdılar ki, Yeni Şamaxının naibi Manaf bəy bir sıra əyanlarla Fətəli xana qarşı çıxmaq qərarına gəlmiş və bu barədə Şəkili Hüseyn xana məktub göndərmişdi. Hüseyn xan Manaf bəyə məsləhət görmüşdü ki, əlverişli məqamda qala qapılarını bağlasın və Fətəli xana meylli olan bütün ağsaqqalları məhv etsin, Hüseyn xan özünü yetirənə kimi qapıları heç kimə açmasın. Lakin Fətəli xan çevik hərəkət edərək rəqiblərini qabaqlamış, Manaf bəyi üç kətxuda ilə birlikdə həbs edərək Dərbəndə göndərmişdir. İ.Matveyev və Y.Zamyatin bildirirdilər ki, indi Fətəli xan Köhnə Şamaxıya qardaşı Abdulla bəyi naib təyin etmək, Yeni Şamaxının idarəsini isə Məhəmməd Səid xana tapşırmaq istəyir. Ancaq Məhəmməd Səid xan bu təklifdən imtina edərək onun ailəsi ilə birlikdə Quba və Dərbənddə yerləşdirilməsini, iki kəndin mülkiyyətinin ona verilməsini istəyir (АВПРИ, ф.77(СРП), оп.1, 1768 г., д. 17, v. 98-99; Абдуллаев, 1958, 158-159).

Şamaxı xanlığının Şəkinin payına düşən mahalları ondan alındı və Qubaya birləşdirildi (Azərbaycan tarixi, 1996, 527). Rusiya konsulu

Sulyakovun yazdığına görə Hüseyn xanın10 minlik qoşunla iyun ayında Şamaxının yanında düşərgə saldığını eşidən Fətəli xan ordusu ilə düşmənin qarşısına çıxmış, 500 qubalı döyüşçünü isə ehtiyat üçün Şamaxıda saxlamışdı. Fətəli xanın yanındakı 15 min döyüşçüdə 5 min nəfəri şamaxılı idi və xan şamaxılı döyüşçülərə etibar etmirdi. Şamaxılı döyüşçülərin rəisləri Fətəli xanı hər vəchlə döyüşə təhrik edirdilər və fikirlərini bununla əsaslandırırdılar ki, qəfil zərbə ilə düşmən çaxnaşmaya düşəcəkdir. Ancaq Fətəli xan bu məsləhəti qəbul etməyərək həmin gün heç bir hərəkət etmədi. Gecə düşən kimi, o, guya hansısa məxfi müşavirə üçün Şamaxı ruhanilərinin başçılarını və Məhəmməd Səid xanı yanına çağırdı. Onların hamısını həbs etdirib Şamaxıya göndərdi. Səhər açılan kimi Fətəli xan düşmənə sarı hərəkət etdi. Hüseyn xan məğlubiyyətə uğrayacağını görüb müqavimətsiz təslim oldu. O, lazım gəldikdə hərbi qüvvə ilə Fətəli xana yardım edəcəyi, digər vaxtlarda isə Şamaxı şəhərinin təhlükəsizliyini qoruyacağı haqqnda öhdəlik götürdü. Sulyakovun məlumatına görə bundan sonra Fətəli xan Məhəmməd Səid xanı 26 nəfər hacı ilə birlikdə mühafizə altında Dərbəndə göndərmişdir (АВПРИ, ф.77(СРП), оп.1, 1769 г., д. 1, v.66-67; Абдуллаев, 1958, 163-164).

Fətəli xanın Yeni Şamaxını dağıtmaq və sakinləri üçün Köhnə Şamaxıda evlər tikməkdən ötrü 6 min nəfər işçi apardığı haqqında məlumat verən konsul həm də yazırdı ki, bir çoxları düşünürdülər ki, Fətəli xan bu hadisələrdən sonra şamaxılılara qarşı cəza tədbirləri görəcəkdir. Ancaq Fətəli xan hər şeyi unudaraq, əksinə şamaxılılara qarşı mərhəmət göstərmişdir. Öz anbarlarından Şamaxının aclıq çəkən sakinlərinə 4 min taqar (10 min rus çətvəri) taxıl (150 min xan manatı dəyərində) paylatdırmışdır (АВПРИ, ф.77(СРП), оп.1, 1769 г., д. 1, v.66-67; Абдуллаев, 1958, s.163-164).

Yeni Şamaxı dağıdıldı, əhalisi isə Köhnə Şamaxıya köçürüldü (Azərbaycan tarixi, 1996, 527-528). Lakin Şamaxı xanlığının ərazisini bütünlüklə ələ keçirməklə Fətəli xan Şəkili Hüseyn xanı öz açıq düşməninə çevirdi. Fətəli xan eyni zamanda Abdulla bəyi Şamaxının idarəçiliyindən kənarlaşdırdı.

Şamaxıdakı vəziyyətdən çox narahat olan Fətəli xan gələcəkdə burada ola biləcək çıxışlara yol verməmək məqsədi ilə Məhəmməd Səid xanı Dərbəndə sürgün etdi. Onun kor edilmiş qardaşı Ağası xan isə 1769-cu ildə Qarabağa qaçdı (Бутков, 1803, 253; Абдуллаев, 1965, 228).

Şəki xanının himayəçiliyindən istifadə edən Ağası xan Şəki və Qarabağ xanlıqlarının arasında Kür çayının sahilində Kotevan adlı yerdə məskən saldı (Бакиханов, 1991, 161). O, Şəki, Qarabağ, Avar və digər xanlıqlarının hakimlərinin dəstəyindən istifadə edərək 16 il ərzində buradan Şimal-şərqi Azərbaycan dövlətinin torpaqlarına basqınlar etmiş və Şamaxıda öz hakimiyyətini bərpa etməyə çalışmışdır (Абдуллаев, 1965, 264). Ağası xan yardım üçün hətta Osmanlı sultanına da müraciət etmişdi (АВПРИ, ф.77(СРП), оп. 6, д. 482, v.91; Абдуллаев, 1965, 264).

Fətəli xan sabiq Şamaxı xanı Məhəmməd Səidi 1775-ci ildə yenidən Şamaxıya hakim təyin etdi və o, on il yenidən Şamaxını «xan» titulu ilə idarə etdi. Sonra Fətəli xan bu vəzifəyə Məhəmməd Səid xanın oğlu Məhəmməd Rza bəyi təyin etdi. 1786-cı ildə Fətəli xan Şamaxıda sərkərlər sülaləsinin hakimiyyətini tamamilə ləğv etdi və Şamaxını təyin etdiyi canişininin vasitəsi ilə biləvasitə özü idarə etməyə başladı (Абдуллаев, 1965, 269-270; Бутков, 1803, 253).

**Cavad xanlığının Quba himayəsinə daxil olması**. Şamaxı xanlığının birləşdirilməsi ilə eyni vaxtda – 1768-ci ildə Kürlə Arazın qovuşduğu yerdə yerləşən, çox da böyük ərazisi olmayan Cavad xanlığı da Şimal-Şərqi Azərbaycan dövlətinin tərkibinə daxil edildi. Cavad hakimi Həsən xan könüllü surətdə Fətəli xandan asılılığı qəbul etdi (Абдуллаев, 1958, 231).

Lakin, 1778-ci ildə Gilan xanı Hidayət xan Cavad şəhərini mühasirəyə aldı və ələ keçirdi. Cavad şəhərinin əhalisinin bir hissəsi Rəştə köçürüldü. Bundan xəbər tutan Fətəli xan Gilana hücum etmək istədi. Lakin Cənubi Dağıstan feodalları tərəfindən müdafiə edilən Qaraqaytaq usmisi bildirdi ki, əgər Fətəli xan Hidayət xana qarşı yürüş etsə, onlar Dərbəndə basqın edəcəklər (Абдуллаев, 1960, 22). Fətəli xan fikrindən daşınmaı oldu.

Göründüyü kimi, Qubalı Fətəli xan dağınıq Azərbaycan torpaqlarını birləşdirmək siyasətini tədricən həyata keçirirdi. XVIII yüzilliyin 70-ci

illərinə yaxın Şimali Azərbaycan ərazisinin demək olar ki, yarısı Quba xanının hakimiyyəti altında idi və xanlıq öz qüdrətinin zirvəsinə çatmışdı. Şimal-şərqi Azərbaycan torpaqlarının siyasi birliyi yarandı. Fətəli xanın təyin etdiyi sultan, naib, yaxud vali Salyanı, Şamaxını, hakim isə Dərbəndi idarə edirdi. Bakı və Cavad xanları yenə əvvəlki tək öz xanlıqlarını idarə etsələr də Quba xanının vassalı sifətilə onun hərbi-inzibati tabeliyində idilər.

Azərbaycanın bir hissəsində də olsa feodal dağınıqlığına son qoyulması o zaman üçün müsbət hal idi. Hərcmərcliyə müvəqqəti də olsa ara verildi, ticarət əlaqələri bir qədər genişləndi.

70-ci illərə yaxın Quba xanlığının qüdrəti və nüfuzu o dərəcədə yüksəldi ki, bir çox zəif feodal hakimlər-xanlar himayə üçün Fətəli xana müraciət edirdilər. Qızlar şəhərinin komendantı Potapovun tapşırığı ilə Fətəli xanın yanında olmuş Tarki sakini Bulat xəbər vermişdi ki, o, Dərbənddə Fətəli xanın sarayında Gilan, Ərdəbil, Təbriz, Gəncə xanlıqlarının hədiyyələrlə gəlmiş nümayəndələrini görmüşdü. Onlar öz hakimləri adından Fətəli xandan himayədarlıq xahiş etmişdilər.

### III. Birləşdirmə istiqamətində uğurların genişlənməsi.

**Fətəli xanın perspektiv planları.** Fətəli xan yalnız qonşu torpaqları birləşdirməklə kifayətlənmək niyyətində deyildi. Bütün Cənubi Azərbaycanı və hətta İranın bəzi yerlərini ələ keçirmək də onun planlarına daxil idi. Təsadüfi deyil ki, İrandan qaçan bir çox siyasi xadimlərə Quba xanının sarayında sığınacaq verilirdi. O cümlədən özünü II Təhmasibin oğlu Süleyman (əslində Abbas-T.M.) Mirzə adlandıran bir nəfər də Quba xanının sarayına pənah gətirmişdi. Mixail Markovun Həştərxan qubernatoruna verdiyi məlumatda deyilirdi: «Süleyman Mirzə beşinci ildir ki, atası Təhmasibin dörd arvadı ilə birlikdə Qubadadır. Onun atası II Təhmasib Nadir şahın oğlu Rzaqulu Mirzə tərəfindən Xorasan əyalətinin Səbzəvar şəhərində öldürülmüşdür (O zaman Nadir şah Hindistanda yürüşdə idi – T.M). Qubalı Hüseynəli xan Süleyman Mirzəni Mazandarandan öz yanına götürmüşdü». "Süleyman Mirzə"nin rus sarayına iki məktubu mövcuddur, məktublardan Süleyman Mirzənin İran taxtına iddia etdiyi aydınlaşır (Абдуллаев, 1965, 188-189).

Fətəli xan Şamaxını öz dövlətinin paytaxtına çevirmək qərarına gəlmişdi. Mənbənin verdiyi məlumata görə öz ailəsi ilə birlikdə Dərbənddən Köhnə Şamaxıya köçmək niyyətində olan Fətəli xan burada öz təhlükəsizliyini təmin etmək üçün Dərbənd, Quba və Salyanın etibar etdiyi sakinlərini Şamaxıya köçürmək istəyirdi (АВПРИ, ф.77(СРП), оп.1, 1769 г., д. 1, v.6). Mənbədə Köhnə Şamaxıya minə qədər ailənin köçürülməsinin nəzərdə tutulması və hətta onların bir hissəsinin artıq buraya köçürüldüyü qeyd olunurdu. Yeni Şamaxının sakinlərini də Köhnə Şamaxıya köçürmək qərara alınmışdı (АВПРИ, ф.77(СРП), оп.1, 1769 г., д. 1, v.6; Абдуллаев, 1965, 320-321).

Fətəli xan Köhnə Şamaxını möhkəmləndirmək üçün böyük səy göstərirdi. Şamaxını Şimal-Şərqi Azərbaycan dövlətinin mərkəzinə çevirmək barədə qərar təsadüfən qəbul olunmamışdı. Görünür Fətəli xan özünü keçmiş Şirvanşahlar dövlətinin varisi kimi qələmə vermək istəyirdi. Şamaxı Azərbaycanın şimal və cənubi hissəsini birləşdirən coğrafi mərkəzdə yerləşir, Şirvanın iqtisadi mərkəzi sayılır, beynəlxalq tranzit ticarətinin mühüm məntəqəsi hesab olunurdu. Quba Şimal-Şərqi Azərbaycanın siyasi mərkəzinə çevrilsə də təsərrüfat-iqtisadi cəhətdən Şamaxı və Bakıdan geri qalırdı.

Digər tərəfdən öz iqamətgahını Şamaxıya köçürməklə Fətəli xan güman ki, buradakı separatçı qüvvələrin müqavimətini qırmaq istəyirdi. Şamaxı həm də Şəki və Qarabağ xanlıqları uğrunda mübarizədə, Cənubi Azərbaycana irəliləmək üçün mühüm strateji əhəmiyyətə malik idi.

**Fətəli xanın birləşdirmə siyasətinə qarşı yaradılan maneələr.** Dərbənd xanlığını birləşdirdikdən sonra Quba xanlığı Dağıstan hakimləri ilə qonşu oldu. Bu hakimlərlə münasibətlər birmənalı deyildi. Tarki şamxalı ilə müttəfiqlik münasibətləri mövcud idisə, bir çox Dağıstan hakimləri ilə münasibətlər gərgin idi, bəzən də düşmənçiliyə çevrilirdi. Qaraqaytaq usmisi, avar və Qazıqumuq xanları, Canqutay hakimi və digər Dağıstan hakimləri Quba xanlığının fəal siyasət yürütməsinə mane olur, öz basqınları ilə onun təsərrüfat-iqtisadi inkişafını ləngidirdilər. Usmi Əmir Həmzə və onun müttəfiqləri Quba xanlığının qüvvələrini parçalayaraq Quba və Dərbəndi müdafiə etməyə vadar edirdilər.

Dağıstanın bir sıra hakimləri, o cümlədən Avar xanları Quba xanının birləşdirmə siyasətinə qarşı çıxdılar. Bu qarşıdurmada Ağası xanla avarlar bir mövqedən çıxış edirdilər. Şamaxının idarəçiliyindən kənarlaşdırılmış Fətəlinin doğma qardaşı Abdullanın Dağıstana qaçıb öz qardaşından onun sahibi olduğu ərazinin yarısını tələb etməsi Fətəli xanın vəziyyətini daha da mürəkkəbləşdirdi.

**Quba xanlığına qarşı iki düşmən blokun yaranması.** Cənubi Dağıstan hakimləri ilə yanaşı Quba xanlığı və ondan asılı ərazilərlə həmsərhəd olan Qarabağ, Şəki xanları da Fətəli xanın qazandığı uğurlardan narahat olurdularki feodal bloku yarandı: birinə Şəki və Qarabağ xanları, sonradan həm də Şamaxıdan qovulmuş Ağası xan daxil idi. Digər bloka Cənubi Dağıstan hakimlərindən Qaraqaytaq usmisi Əmir Həmzə, Qazıqumuqlu Məhəmməd xan, avar xanları Nutsal və Ömər, Tabasaran kadisi Rüstəm, canqutaylı Əli sultan, Dişsiz Məhəmməd, Tavlin feodalları, Kostyukovlu Həmzə Əlişov daxil idilər. Əndəri feodalları Temuf Həmzə, Əmirsultan Kazanalınov və başqaları da onlara kömək edirdi (Бакиханов, 1991, 162-163; Абдуллаев, 1965, 510).

Cənubi Qafqazda amirliyə can atan Kartli-Kaxet çarı II İrakli də Fətəli xanın Azərbaycan torpaqlarını birləşdirmə siyasətinə müqavimət göstərirdi. O, Qarabağ və Şəki xanlarının Qubaya qarşı yönəlmiş ittifaqını müdafiə edirdi.

Quba xanlığının daxili vəziyyəti də yaxşı deyildi. Şamaxıda sərkərlər sülaləsini bərpa etməyin tərəfdarları fəaliyyət göstərir və Şamaxıdakı həyəcanlar Fətəli xanın xeyli vaxtını və qüvvəsini alırdı. Rus zabiti Andrey Filatov 1770-ci ilin sentyabrında yazırdı ki, Quba xanının qoşunları qayda-qanunu bərpa etmək üçün Köhnə Şamaxıya getmiş və 6 gün orada qalmışdır (АВПРИ, ф. 77(СРП), оп.5, д. 17 (1767-1774), v.254 a.ü.).

Beləliklə, 1771-1772-ci illərdə şərait Quba xanlığının zərərinə olaraq dəyişdi. Fətəli xan müvəqqəti olaraq müdafiə mövqeyinə keçməli oldular.

Rusiyanın Ənzəlidəki konsulu Boqolyubovun yazdığına görə 1772-ci ilin əvvəlində qubalı Fətəli xan şəkili (sənəddə yanlış olaraq qarabağlı getmişdir) Hüseyn xana qarşı yürüş etmiş, ancaq uğur qazanmamışdır. Sonda qəflətən Hüseyn xanın basqınına məruz qalıb məğlub olaraq qaçıb. Lakin Hüseyn xan Fətəli xanı təqib etməyərək Quba xanlığının ərazisinə hücum etməmiş, onu öz torpaqlarından sıxışdırıb çıxarmaqla kifayətlənmişdir. Fətəli xanın uğursuzluğunun mühüm səbəblərindən biri yəqin məvacibləri gecikdirildiyindən dağıstanlı döyüşçülərin özbaşına onun qoşununu tərk etməsi olmuşdur. Boqolyubov daha sonra Fətəli xanla Hüseyn xanın barışdıqlarını qeyd edirdi (АВПРИ, ф.77(СРП), оп. 7, д. 119, v.6 və a.ü.).

Rusiya konsulunun yazdığına görə yerlilər Şamaxıda sərkarlar sülaləsinin hakimiyyətinin bərpa olunmasını arzulayırdılar. Bu qədim ticarət şəhəri Fətəli xanın ağır vergi siyasəti nəticəsində müflisləşmişdi, Boqolyubov hesab edirdi ki, Fətəli xan Şamaxını uzun müddət əlində saxlaya bilməyəcək (АВПРИ, ф.77(СРП), оп. 7, д. 119, v.7). Rus konsulunun bu məlumatı belə bir qənaətə gəlməyə əsas verir ki, nəinki digər xanlar Azərbaycanın birləşdirilməsi prosesinə müqavimət göstərmiş, heç digər xanlıqların əhalisinin özü də birləşməyə hazır olmadığından əlahiddə yaşamağa meylli idilər.

**İlk qarşıdurma.** 1773-cü il noyabrın sonu-dekabrın əvvəllərində Şəki, Avar, Qarabağ xanlıqlarının və Qubaya düşmən digər feodal hakimlərinin birləşmiş qüvvələri Şamaxı üzərinə yeridilər. Maraqlıdır ki, Avar xanı daim Kartli-Kaxet ərazisinə basqınlar etdiyi halda indi II İrakli avarların öz ərazisindən keçib Şamaxıya hücum etmələrinə razı olmuşdu. Hətta II İrakli ondan asılı olan borçalılılardan, qazaxlılardan Avar xanına kömək də vermişdi (АВПРИ, ф.77(СРП), оп. 5, д. 16, v.282; Абдуллаев. 1965, 521). Fətəli xan qüvvəsi az olduğundan Şamaxını tərk etməli oldu. Ağası xan Köhnə Şamaxıya daxil oldu (Абдуллаев, 1965, 521).

Bu barədə daha ətraflı məlumat verən Samuil Qmelin yazır ki, 1773-cü il noyabr ayının 20-də şəkili Hüseyn xan və Şamaxıdan qovulmuş Ağası xan qəflətən Şamaxıya həmlə etmişlər. Fətəli xandan narazı olan şamaxılılar Ağası xanla gizli əlaqə yaratmışlar. Bu zaman Şamaxıda olan Fətəli xan qısamüddətli müqavimətdən sonra yanında olan azsaylı salyanlı döyüşçülərlə və bu yanında olan bakılı Məlik Məhəmməd xanla Dərbəndə qaçmalı olmuşdu. Quba xanına tabe olan ərazilərdə qarətlər və

toqquşmalar baş verirdi. Lənkəran xanının nəvəsi qətlə yetirilmiş, bir çox tacirlər, hətta rus tacirləri qarət olunmuşdu. Fətəli xanın xidmətində olan salyanlı döyüşçülər Salyana qaçmışdılar. Dağıstanlı döyüşçülər Fətəli xanın qohumu və sərkərdəsi Eldar bəyi xüsusi səylə axtarırdılar (ПФАРАН, ф.3/394, д.20, v.117 a.ü.-118).

Fətəli xan məğlubiyyətlə barışmayaraq, Aquşa, Tabasaran, Dərbənd və Qubadan çoxlu qüvvə toplayıb Şamaxı yaxınlığında düşmənlərini məğlubiyyətə uğratdı. Avarlar xüsusilə çox itki verdilər. Döyüş zamanı Avar hakim Nutsal xan həlak oldu. Ağası xan Elevliyə qaçdı (Hacinski, 1959, 12-13; Абдуллаев, 1965, 522).

A.A.Bakıxanovun yazdığına görə özününkülərdən təcrid olunmuş Nutsal xan isə şəhərin yuxarı hissəsində qapandı. Fətəli xan aman vəd edərək Nutsal xanı öz düşərgəsinə çağırdı (Бакиханов, 1991, 161). Hər üç xan çadırda söhbət etdikləri zaman Fətəli xanın qoşununda olan akuşalılar Fətəli xanı çağırıb qan düşmənləri olan Nutsal xanın qətlə yetirilməsini tələb etdilər. Məcburiyyətdə qalan Fətəli xan çadırı arxadan kəsib Məlik Məhəmməd xanı çıxarmağı əmr etdi.

Bu hadisədən bir müddət sonra Məhəmməd xan Nəçəfə ziyarətə getdi və orada da vəfat etdi. Onun on bir yaşlı oğlu II Mirzə Məhəmməd xan taxta çıxdı, dayısı Fətəli xan onun qəyyumu oldu (Бакиханов, 1991, 165).

**Gavduşan döyüşü.** 1774-cü ildə Qaraqaytaq usmisi Əmir Həmzə başda olmaqla qazıqumuqlu Məhəmməd xanın, avarlı Ömər xanın birləşmiş qüvvələri, habelə Tabasaran kadisi Rüstəmin, canqutaylı Əli sultanın, Dişsiz Məhəmmədin, Kostyukov, Enderi və başqa hakimlərin dəstələri Qubaya doğru hərəkət etdilər (Абдуллаев, 1965, 524). Düşmənlər sürətlə hərəkət etdiklərindən qubalılar onları dəf etmək üçün yeni qüvvələr toplamağa macal tapmadılar. Quba xanınının sadiq müttəfiqləri – Tarku şamxalı və Buynak hakimi Tarku və Buynakı müdafiə etməyə məcbur olduqlarından ona yardım göstərə bilmədilər. Qubaya yürüşün iştirakçıları əsl məqsədlərini guya Avar xanının və oğlanlarının intiqamını almaq istəyi ilə pərdələyirdilər (Бакиханов, 1991, 161; Абдуллаев, 1965, 525).

Fətəli xan və onun düşmənləri Xudatın yaxınlığında Gavduşan çölündə qarşılaşdıqda üstünlük əvvəlcə Fətəli xanın tərəfində olasa da usminin oğlu Əli bəy Quba qoşunlarının mərkəzinə cəsarətli zərbə vurduqdan sonra döyüşün gedişi dəyişdi. Hər iki tərəfdən böyük itkilər oldu. Dişsiz Məhəmməd, Qazıqumuqlu Eldar bəy və məsum şeyx Əli bəy həlak oldular. Məğlubiyyətə uğramış Fətəli xan Qubada duruş gətirə bilmədi və Salyana çəkildi (Бакиханов, 1991, 162).

Qələbədən ruhlanan Əmir Həmzə Dərbəndə tərəf hərəkət etdi. Eyni zamanda belə bir şaiyə yayıb bacısı – Fətəli xanın arvadı Tutu Bikənin müdafiəsinə başçılıq etdiyi Dərbənd qalasına çatdırdı ki, guya Fətəli xan döyüşdə həlak olub və onlar xanın cənazəsini də özləri ilə gətirirlər. Usmi həlak olmuş Dişsiz Məhəmmədin cənazəsini öz bacısına Fətəli xanın cənazəsi kimi təqdim edərək qalanın qapılarının açılmasını istədi. Lakin Tutu Bikə qardaşının yalanına inanmadı və düşmənə qala divarlarından atəş açmağı əmr etdi (Бакиханов, 1991, 162). Əmir Həmzə təqribən doqquz ay Dərbəndi mühasirədə saxladı. Tutu Bikə şəhəri mərdliklə müdafiə edirdi. Dərbəndin mühasirənin uzanmasından istifadə edən Fətəli xan dəniz vasitəsilə oraya qayıtdı (Абдуллаев, 1965, 538).

Gavduşan məğlubiyyətindən sonrakı aylar Quba xanlığı üçün çox böhranlı dövr idi. Fürsətdən istifadə edən Ağası xan müvəqqəti də olsa Şamaxını ələ keçirmişdi. Fətəli xan qüvvələrini birləşdirərək düşmənin sonrakı irəliləyişinin qarşısını almağa nail oldu. Bakı şəhərinin əhalisi silahlı dəstələri ilə birlikdə usminin qoşunlarının hücumunu dəf edə bildilər və sonuncular Bakının mühasirəsini ləğv etməyə, Dərbəndə tərəf çəkilməyə məcbur oldular (Бутков, 1803, II his, 19).

**Dərbəndin müdafiəsi.** Bütün Dərbəndi və ətrafını aclıq bürümüşdü. Ancaq Qazıqumuqlu Məhəmməd xan getdikcə vəziyyətin pisləşdiyni görərək Quba və Gülhanı tərk etdi və Qazıqumuqa qayıtdı (Бутков, 1803, 1I his, 539; Алкадари, 1929, 83, 27, 539). Quba xanının müttəfiqi olan Tarki şamxalının qoşunları, buynaklılar bir neçə dəfə Dərbəndin mühasirəsini yarmağa cəhd etsələr də buna nail ola bilmədilər.

Fətəli xan hələ Salyanda olarkən dərbəndli Mirzə Bayatı kömək və himayə xahişi ilə Peter-

burqa, çariçə II Yekaterinanın yanına göndərdi. Çar sarayında Fətəli xanın elçiləri yaxşı qarşılandılar. İmperatriça bir neçə piyada və topçu taborunun Qaraqaytaq usmisinə qarşı Dərbəndə göndərilməsini Qafqaz xəttindəki rus qoşunlarının komandanı general de-Medemə əmr etdi. De-Medemin Dərbəndə göndərilməsinin başqa səbəbi də vardı. Rusiya Elmlər Akademiyasının üzvü professor Samuil Qmelin Azərbaycana etdiyi ikinci səyahəti zamanı (1772-1773) Əmir Həmzə tərəfindən həbs edilmiş, bir qədər keçdikdən sonra həbsdə ölmüşdü. Qmelin II Yekaterinanın tapşırığı ilə göndərilmişdi və elmi axtarışlarla yanaşı casus məlumatı toplamaqla da məşğul olurdu. Əmir Həmzə məhz buna görə onu həbs etmişdi. Əmri yerinə yetirən de-Medem 1775-ci ilin martında Əmir Həmzənin mülklərinə qoşun yeritdi. Fətəli xanın müttəfiqi Tarki şamxalı Murtuzəli De-Medemə qoşuldu. De-Medem Dərbənddən şimalda yerləşən və «İran xarab» adlanan yerə çatdı. Əmir Həmzə Dərbəndin mühasirəsindən əl çəkib de-Medemə qarşı çıxdı, lakin məğlubiyyətə uğradı. Fətəli xan De-Medemə Dərbəndi tutmağı və onu Rusiya himayəsinə qəbul etməyi təklif etdi. De-Medem Dərbəndə daxil oldu.

De-Medemin başçılığı ilə rus hərbi hissəsinin Dərbəndə daxil olması Osmanlı imperiyasında böyük narahatlıq doğurdu. Osmanlı sarayında hesab edirdilər ki, Rusiya yenicə bağlanmış sülh müqaviləsini pozmuşdur (АВПРИ, ф. 77(СРП), оп.6, д. 47, v.104; Алкадари, 1929, 531). Dəməşqdən Bakı vasitəsilə Dərbəndə gələn iki osmanlı məmuru bura rus qoşunlarının niyə daxil olduğunu və niyə indiyə qədər qaldığını soruşmuşdu (Абдуллаев, 1965, 531). Osmanlı vəziri Rusiyanın Cənubi Dağıstandakı niyyətləri barədə rəsmi sorğu verdi (Абдуллаев, 1965).

Osmanlılarla münasibəti yenidən kəskinşəldirmək istəməyən II Yekaterina de-Medemə əmr etdi ki, Osmanlı dövlətini və İranı hələlik «əsəbiləşdirməmək» üçün Dərbənddə saxlanan kiçik dəstəni də çıxarmağı əmr etdi. Əmr yerinə yetirildi (Абдуллаев, 1965, 532-534; Маркова, 1966, 157).

Beləliklə, gərgin hərbi və diplomatik mübarizə nəticəsində Fətəli xan 1774-cü ilə kimi asılılığında olan ərazilər üzərində öz nəzarətini bərpa edə bildi. Şamaxı yenidən tabe edildi. 1775-ci ildə Fətəli xan Ağsunun (Yeni Şamaxını) idarəsini bundan əvvəl 7 il Dərbənd zindanında yatmış Məhəmməd Səid xana tapşırdı. Kotevanda (Əlvənddə) qərar tutan Ağası xan da zahirən tabeçilik göstərdi və ətraf yerləri idarə etməyə başladı (Бакиханов, 1991, 163).

Fətəli xan Əmir Həmzəni sakitləşdirmək üçün ona qarşı qəti tədbir görməyi qərara aldı. O, usminin qardaşı oğlunu, əmisindən incimiş Məhəmmədxan bəyi müxtəlif vasitələrlə öz tərəfinə çəkdi. A.A.Bakıxanovun yazdığına görə Fətəli xan Məhəmmədxan bəyi öz əmisinə qarşı qaldırıb Dərbənddən 3 fərsəx aralı bir yerdə qala tikdirdi, həmin qalanın adını «Xanməhəmmədqala» qoydu və Qubadan oraya 100 ailə köçürdü (Бакиханов, 1991, 163). İ.Hacınski isə qalanın Dərbənddən 20 fərsəx aralıda tikildiyini və bura Qubadan 200 ailə köçürüldüyünü qeyd edir (Hacinski, 1959, 17).

Qazıqumuqlu Məhəmməd xanın oğlu Şahmərdan bəy də Fətəli xanın tərəfinə keçdi və əvəzində Qəbərək kəndindən başlayaraq Kürə dairəsinin aşağı hissəsinə qədər olan yerləri, habelə Güney mahalını Fətəli xandan aldı (Бакиханов, 1991, 17-18).

1776-1777-ci illərdə öz lal oğlu Novruz bəyin adından Tabasaranı idarə edən Xanım Bikə Qaraxan qızı vəfat etdi. Fətəli xan keçmiş məsumun oğlu Məhəmməd Hüseyn bəyi məsum vəzifəsinə təyin etdi (Бакиханов, 1991).

## IV.Fətəli xanın birləşdirmə siyasətini davam etdirməsi

**Birləşdirmə siyasətinin Rusiya tərəfindən dəstəklənməsinə nail olmaq cəhdləri.** 1775-ci ilin yazında Fətəli xan Dərbənd hakimi və Quba naziri vəzifələrini daşıyan Mirzəbəy Fərhadbəyovun başçılığı ilə Rusiyaya elçilik göndərdi (АВПРИ, ф.77(СРП), оп. 1, 1775 г., д. 15, v.164). Fətəli xan Dərbəndi Rusiyaya verəcəyini bildirmiş və şəhərin açarlarını rus sarayına göndərmişdi. Fətəli xan onun Krım xanının hüququnda Rusiya himayəsinə qəbul olunmasını xahiş edirdi. Krım isə məlum olduğu kimi 1774-cü il kiçik Qaynarca sülhü ilə bitərəf, müstəqil dövlət elan edilmişdi. Göründüyü kimi, Quba xanı Rusiya himayəsinə keçməsinin əsas şərti kimi müstəqilliyinin saxlanmasını irəli sürürdü. Rusiya himayəsi yalnız müttəfiqlik şərtlərində öz əksini tapmalı idi. Bu isə əslində Qubanın Rusiyadan cüzi asılılığı demək olardı.

Quba xanının elçiləri 1775-ci ilin mayında Həştərxana, iyununda isə Moskvaya çatdılar (Абдуллаев, 1965, v.53-54; Архив т.1, ч.2; т.2.СПб.: 1869, 1888, 788-789; Бакиханов, 1991, 549).

Lakin Rusiya özü bilavasitə Azərbaycanı zəbt etmək istədiyindən Fətəli xanın xahişini yerinə yetirmədi. Üç dəfə müzakirədən sonra Dövlət Şurası qərara aldı ki, Fətəli xana müstəqil qalmaqla qonşuların ondan qopardığı mülklərin geri alınmasında Rusiya ona kömək edə bilməz. Bəhanə kimi guya Quba xanlığı ərazisinin İrana aid olması göstərilirdi (АВПРИ, ф.77(СРП), оп. 1, 1775 г., д. 15, v.53-54; Архив Государственного Совета. Протоколы Совета в царствование Екатерины II, т.1,ч.2; т.2.СПб.:1869, v.788-789; Бакиханов, 1991). Əslində isə xanın himayəyə keçmək şərtləri Cənubi Qafqazı bilavasitə ələ keçirmək istəyən Rusiyanı qane etmirdi. Digər yandan bu zaman Rusiyanın diqqətini Krım, Qara dəniz, Dunay, Polşa və digər beynəlxalq və daxili məsələlər daha çox cəlb edirdi. Y.Puqaçovun başçılığı ilə kəndli müharibəsi tüğyan etməkdə idi.

**Kərim xan Zəndlə münasibətlər.** Fətəli xanın güclənməsi Mərkəzi İrana öz hakimiyyətini yaymış Kərim xan Zəndi də narahat edirdi. Əvvəlcə Kərim xan diplomatik üsulla Fətəli xanı öz təsiri altına almaq istədi. Onun göstərişi ilə rəştli Hidayət xan dərbəndli Fətəli xanı satın almaq üçün ona çoxlu hədiyyə, pul və mal göndərib bildirirdi ki, Fətəli xanla qohum olmaq istəyir, tələb edir ki, bacısı Fatmanı onun oğluna (Əbülfət xana – T.M.) versin, əgər Fətəli xan Rusiyadan üz döndərsə, vəkildən istədiyi hər bir yardımı alacaqdır (Бакиханов, 1991, 556).

Fətəli xanın özü də Rusiya sarayına yolladığı məktublarda Kərim xanın ona hədiyyələr və pul göndərdiyini, lakin vəkilin təklifini qəbul etmədiyini yazırdı (АВПРИ, ф.77(СРП), оп. 1, 1775 г., д. 15, v.65-66; Абдуллаев, 1965, 538).

1775-1776-cı illərdə Fətəli xan və Kərim xan Zənd arasında iki dəfə elçi mübadiləsi olmuşdur. Əvvəlcə İrandan bir nümayəndə gəlmiş, sonra Fətəli xanın Əfrasiyab adlı bir nümayəndəsi və daha iki qubalı onunla İrana gedərək, orada danışıqlar aparmışdılar. General de-Medem Dərbənddə olan vaxt onlar İran hakiminin məktubu ilə birgə geri qayıtmışdılar. Kərim xanın ikinci elçisinin Qubaya gəlişinə cavab olaraq Fətəli xan Mir Məhəmməd Hüseyn adlı bir nəfəri Şiraza göndərmişdi (Абдуллаев, 1965, 558-559).

Fətəli xanla münasibətləri pisləşdirməkdən çəkinən Fətəli xan manevr edir, Kərim xanla qohum olmaq məsələsini yubadırdı. Abbas Qulu Ağa Bakıxanovun verdiyi məlumata görə Fətəli xan bacısı Fatimə xanımı vəkilin oğluna nişanlasa da sonradan şamaxılı Məhəmməd Səid xan Fatiməni oğli Məhəmməd Mirzə (Məhəmməd Rza) bəyə istəmişdi. Məhəmməd Səid xanın qardaşı Ağası xan Fətəli xanın Şamaxı xanlığına iddiası olmasından şübhələnirdi və buna görə də həmin evliliyə qarşı şıxmışdı. Lakin qaardaşı onun sözünə məhəl qoymamışdı (Бакиханов, 1991, 166). Kərim xan və onun tərəfdarları Fətəli xanın niyyətini anlayıb təzyiq və hətta şantaj üsuluna əl atdılar. 1776-cı ilin iyun ayında Hidayət xan İrandakı Rusiya konsulluğunun məmuru olan Karp Latınsevi Rəştə dəvət edib ona mühüm bir məlumat vermişdi. Guya Fətəli xan Şiraza göndərdiyi bir elçisi vasitəsilə Dərbənddəki rus döyüşçülərini qovmaq üçün Kərim xan Zənddən böyük qoşun xahiş etmişdir (АВПРИ, ф. 77(СРП), оп. 6, д. 478, v.7).

**Gilanlı Hidayət xanla münaqişənin dərinləşməsi.** Kərim xanın tövsiyyəsi ilə Quba xanına rəqib olan feodalların köməyi ilə birləşmiş şimal-şərqi Azərbaycana qarşı qəti hərəkətlərə hazırlığa başladılar. Bu işdə əsas rolu Kərim xan Zəndə qohum olan Gilan hakimi Hidayət xan (onun bacısı İran hakiminin oğlunun arvadı idi) oynayırdı (Абдуллаев, 1965, 555).

1778-ci ilin aprel ayında Gilan hakimi Hidayət xan Ağası xan və Qaytaq usmisi ilə əvvəlcədən razılaşdırdığı hərbi yürüşə başladı. Yürüş Quba xanlığına tabe olan yerləri talamaq məqsədi daşıyırdı. Salyanı tutan və qarət edən Gilan qoşunları Muğana hücuma keçdilər. Onlar sabiq Şamaxı xanı Ağası ilə birləşib Cavad xanlığına doğru irəlilədilər. Bundan xəbər tutan Fətəli xan dərhal onlara qarşı hərəkət etmək qərarına gəldisə də, Cənubi Dağıstan feodallarının təzyiqi nəticəsində öz səfərini təxirə saldı. Gilanlılar Cavadı da qarət edib, bir neçə yüz sakini Rəştə və Ənzəliyə köçürdülər (Абдуллаев, 1965, 565-566).

Məsələ burasındadır ki, Hidayət xan usmiyə qiymətli bəxşişlər göndərərək qubalı Fətəli

xana qarşı mübarizədə ondan yardım istəmişdi. Buna görə də Fətəli xan Hidayət xanın onun himayəsində olan muğanlı Tale Həsən xana basqın etmək niyyətindən xəbər tutub ona qarşı çıxmaq istədikdə usmi ona işarə vermişdi ki, əgər Fətəli xan onun dostu Hiidayət xanın düşmənlərini müdafiə edəcəksə usmi Dərbəndə həmlə edəcəkdir. Bu səbəbdən də Fətəli xan Dərbəndi tərk etməyə cəsarət etməmiş, Hidayət xan Cavad qalasını almış və Salyanı qarət etmişdi (АВПРИ, Ф.77(СРП), оп.6, д.481, v.222).

Cavad qalasının mühasirəsi aprelin 5-i, yaxud 6-da günorta başlamışdı. Gilanlılar əvvəlcə şəhərə 7 bomba atmış, sonra toplardan atəş açmışdılar. Müdafiəçilərin qüvvəsi çox az olduğundan onlar vahiməyə düşmüş, naəlac qalan Tale Həsən mühasirənin ikinci günü Hidayət xanın düşərgəsinə getmiş, ancaq həbs olunmuşdu. Hidayət xanın qoşunları Cavada daxil olaraq şəhəri qarət etmişdilər (АВПРИ, Ф.77(СРП), оп.6, д. 481, v.222 a.ü).

1779-cu ildə mərkəzi İranda 20 ilə yaxın hakimiyyətdə olan Kərim xan Zənd vəfat etdi. İranda hakimiyyət uğrunda mübarizə yenidən qızışdı. Şah taxtına ən real namizəd olan Ağaməhəmməd xan Qacarın hücumuna məruz qalan Hidayət xan Gilandan dəniz yolu ilə Bakıya, oradan isə kömək istəmək xahişi ilə Fətəli xanın yanına – Qubaya getdi, Quba xanı ona Mirzə bəy Bayatın başçılığı ilə 9 min döyüşçü verib, Rəştə göndərdi. Quba döyüşçüləri, A.Bakıxanovun məlumatına görə Rəşti tutub, Hidayət xanı yenidən Gilan taxtına əyləşdirdilər. İsgəndər bəy Hacınski də, bu məlumatı demək olar ki, eynilə təsdiq edir (Бакиханов, 1991, 164-165; Hacinski, 1959, 18-19).

### V. Fətəli xanın knyaz Aleksandr Bakar oğlunu Kartli taxtına oturtmaq planı və Cənubi Azərbaycana öz təsirini yaymaq cəhdi.

**Rusiya və Kartli-Kaxeti çarlığının buna müqaviməti**. Bəzi məlumatlara görə, Fətəli xan Ərdəbil xanı İbrahim xanın qohumu olduğundan Fətəli xana qarşı müxalif mövqe tutduğuna görə Ərdəbilə yürüş etməyi planlaşdırırdı. Həm də Fətəli xan daha sonra Gilana hücum edib Hidayət xanı devirmək, yerinə ayrısını taxta çıxarmaq niyyətində imiş. Fətəli xanın Hidayət xandan narazılığının başlıca səbəbi bir müddət əvvəl Ağa Məhəmməd xan Qacar Gilana hücum edib Hidayət xanı oradan qovduqdan sonra Fətəli xanın yardımı ilə yenidən hakimiyyətini bərpa etsə də Quba döyüşçülərinə razılaşdırılmış məbləği verməkdən imtina etməsi olmuşdu. Hidayət xan hətta döyüşçülərin atlarını əllərindən alıb özlərini buraxmışdı (РГВИА, ф.52, оп.1, д. д. 286, ч. 1, v.7).

Elə bu vaxtlar Fətəli xanın öz təsirini Gürcüstana yaymaq üçün bir imkan yarandı. Vaxtilə Kartli çarı olmuş VI Vaxtanqın nəvəsi, oğlu Bakardan törəmiş Aleksandr[***] Aleksandr Amiloxvarinin müşayiəti ilə onun Kartli taxtına çıxması üçün yardlm göstərməsini Fətəli xandan

[***] Səfəvi qoşunlarının sərkərdəsi VI Vaxtanq (Şahnəvaz) xan Rusiya çarı I Pyotrla gizli əlaqə yaradaraq 1722-ci ildə Rusiya imperatorunun Xəzəryanı vilayətlərə yürüşündə etmək üçün ona sadiq dəstələrlə hərəkət etmiş, lakin Pyotr yürüşünü yarımçıq dayandırıb Rusiyaya geri döndüyündən müttəfiqlərin birləşməsi baş tutmamışdı Vaxtanqın xəyanətindən xəbər dar olan Şah II Təhmasibin göstərişi ilə əslən gürcü olub müsəlmanlığı qəbul etmiş Kaxet, həm də o zaman Gəncə bəylərbəyi vəzifəsini tapşırdığı Məhəmmədqulu (Konstantin) xan Vaxtanqı Kartlidən qovmuşdu. Bunadan sonra Rusiyaya gedən VI Vaxtanq orada yaşayaraq 1737-ci ildə Həştərxanda vəfat etmişdir. Vaxtanqın 1750-ci ildə ölmüş oğlu Bakardan törəmiş nəvəsi Aleksandr rus ordusuna daxil olararaq kifayət qədər yüksək mənsəbə- Qvardiya İzmaylovo alayının kapitanı rütbəsinə yüksəlmişdi. Aleksandrın devrilərək qətlə yetirilmiş imperator III Pyotra sədaqətindən qəzəblənmiş II Yekaterinanın göstərişi ilə o, 1766-cı ildə vəzifdən azad edilərək Qızlara gətirilmiş və burada Rusiyadan deport olunmuşdu ( Бутков, II his,, v.114).

Aleksandr Bakaroviç Kərim xanın yanına gedərək hüququ çatdığı üçün onun Kartli taxtına çıxmasına yardım göstərməsinu rica etmiş, əvəzində Kartlini onun himayəsinə verəcəyini vəd etmişdi.II İrakli Kaxetdən olan təbəələrinə daha çox üstünlük verdiyindən Kartli əhli ondan narazı idi. Kərim xan 1777-ci ildə Qaraqaytaq usmisinə hədiyyələr göndərərək Gürcüstana basqın etməyə razı salmışdı. Digər yandan da Kərim xanın qohumu gilanlı Hidayət xan Zəki xanla birlikdə öz qoşunları ilə şahzadə Aleksandra yardım göstərməli idilər. 1778-ci ildə gerçəkləşdirilməli olan bu plan Fətəli xan və Tarki şamxalı usmiyə yol vermədiklərinə görə həyata keçirilməmiş qaldı ( Бутков,II his.,s.114-115).

1779-cu ildə II İraki ilə aralarında narazılıq olduğu üçün İmeret çarı Solomon şahzadə Aleksandrı yanın çağırır. Bir müddətdən sonra Solomon İrakli ilə barışdığına görə Aleksandr 1781-ci ildə Axısxaya getməli olur. 1782-ci lin əvvəlində Kabardaya, oradan da Tarki şamxaının yanına getmmişdir[33, II his., s.116]. Aleksandr Bakaroviç şamxaldan ona yardım göstərməsini xahiş edərək əvəzində şamxalı hər bir döyüşçüsünə yarısını əvvəldən, yarısını isə sonradan ödəməklə 100 rubl verməyi öhdəsinə götürmüşdü. Bu təklifə müsbət yanaşan şamxal ona Fətəli xanın yanına getməyi məsləhət görmüşdü (Бутков, II his. s.116).

xahiş edir. Fətəli xan knyaz Aleksandrı çox yaxşı qarşılamışdı. II İrakli Fətəli xanın Aleksandrı Kartlidə hakimiyyətə gətirmək niyyətindən xəbər tutaraq bunun qarşısını almaq üçün yardım göstərməsi xahişi ilə II İrakli knyaz Q. Potyomkinə müraciət etmişdi. Knyaz Potyomkin Qızlar komendantına Fətəli xanın niyyətinə mane olmağı tapşırmışdı. Komendant məktublar göndərərək Fətəli xandan Aleksandra yardım göstərməməyi tələb etmişdi. Fətəli xan planını həyata keçirməyi təxirə salmış, lakin knyaz Aleksandrı da hələlik yanında saxlamışdı (Бутков, 1803, II his., 117). Fətəli xanın 1782-ci ildə II Yekaterinaya göndərdiyi məktubdan aydınlaşır ki, Qızlar komendantı Qızlar sakini Hacı Mirzə bəyi və poruçik Pyotr Petrovu Fətəli xanın yanına göndərərək yanında saxladığı gürcü şahzadəsi Aleksandr Bakarovun Rusiyaya təslim etməsini tələb edibmiş. Aleksandr yardım almaq üçün Dağıstana, oradan da Dərbəndə gəlmişdi. Fətəli xan yazırdı ki, şahzadə Aleksandr Dağıstanda olduğu zaman şamxal Murtuza Əli, Qaytaq usmisi Əmir Həmzə, cüməkəndli Əli Sultan Dərbəndə gəlib Fətəli xana birlikdə Gürcüstana hücum etməyi təklif ediblər. Fətəli xan buna razılıq verməsə də onlar Gürcüstana hücum etmiş və Fətəli xanın yazdığına görə II İraklini Tiflisdən qovub Aleksandrı gürcü taxtına çıxarmış, özləri çoxlu qənimətlə geri, Dağıstana qayıtmışlar (АВПРИ, ф. (СРП), оп.5, д. 8(1765 – 1797гг.), д. 15, v.107-117).

Durumu onsuz da ağır olan II İrakli knyaz Aleksandrın Kartlidə hakimiyyəti ələ keçirəcəyindən qorxurdu. Digər yandan da Çar Gürcüstana basqınlar etməmələri üçün Dağıstan hakimlərinə ildə 60-100 min rubl verməli olurdu. II İrakli vəziyyətdan çıxış yolunu Rusiya himayəsinə qəbul edilməsi üçün ərznamə göndərməkdə gördü (Бутков, 1803, II his., 118-119).

Fətəli xan ilk vaxtlar şahzadə Aleksandrı Rusiyaya təslim etməkdən imtina etsə də sonda Rusiyanın təzyiqləri qarşısında dayana bilmədi və 1782-ci ilin sonlarında şahzadəni Rusiyaya göndərdi (РГВИА, ф.52, оп.1, д. 331,ч.1, v.23; Абдуллаев, 1965, 170).

**Fətəli xanın yalançı şahzadəni şah taxtına oturtmaq cəhdi.** Fətəli xanın aprel ayında P.S.Potyomkinə yazdığı məktubdan aydınlaşır ki, o, yəni Fətəli xan yanına gələn «Misir Abbasini» Salyanda saxlayır. Onun yanına göndərdiyi mayor Qauzenə xan demişdi ki, guya Gilana rus konsulu Tumanovskini azad etmək üçün gedir. Mayorun ehtimalına görə isə əslində Fətəli xan Hidayət xanın xəzinəsini ələ keçirmək sonra lənkəranlı Qara xan və Aslan xanla birləşib Ərdəbilə gedərək «Misir Abbasini» şah elan etmək istəyir. Sonra da «şahın» adından Rusiyaya elçi göndərəcək. Bu məsələ ilə bağlı rus hökumətinin mövqeyini soruşan P.S.Potyomkin hələlik rus hökumətinin mövqeyini öyrənənədək II İrakliyə məktub göndərib Təbriz, İrəvan və Xoy xanlarını Fətəli xanla birləşməyə yol verməməyə çağırmışdı (РГВИА, ф.52, оп.1, д. д. 286, ч. 1, v.48).

Fətəli xan gen. Potyomkinə o, xandan II İraklini rahat buraxmağı tələb etdiyindən yalnız İbrahimxəlil xanı cəzalandırıb, geri döndüyünü, Gürcüstana getmədiyini yazırdı (РГВИА, ф.52, оп.1, д. д. 286, ч. 1, v.49). Fətəli xan bunu da yazırdı ki, Nadir şahın oğlu Rzaqulu Mirzə Səbzəvarda şah Təhmasibi ailə üzvləri ilə birlikdə qətlə yetirərkən bir xeyirxah kəndxuda onlardan bir nəfəri – Abbas Mirzəni xilas etmişdir. Abbas Mirzə Nadirin və Kərim xanın hakimiyyəti dövründə müxtəlif yerlərdə gizlənmişdir (РГВИА, ф.52, оп.1, д. д. 286, ч. 1, v.49). İndi xanların taxtda Səfəvi nəslindən olan bir şəxsi görmək arzularını bilib Salyana gəlmişdir. Bu günlərdə Ərdəbilə gedəcəyik. Bir çox Azərbaycan xanları da bura gələcək və burada Abbas Mirzəyə sədaqət andı içiləcəkdir (РГВИА, ф.52, оп.1, д. д. 286, ч. 1, v.99).

İbrahimxəlil xan da Fətəli xan guya şah Hüseynin nəslindən olan bir qondarma şahzadəni Salyana gətirdiyini xəbər verirdi. Qarabağ xanı Fətəli xanın qondarma «Abbas Mirzəyə» yazdığı məktubu ələ keçirərək gen. Potyomkinə göndərmişdi (РГАДА, ф. 23, д. 13, ч. 3, v.99).

Məktubdan aydınlaşırdı ki, qondarma şahzadə Fətəli xana Məşhəddən Yəzdə gəldiyini, Əli Murad xan bu şəhərə hücum edərkən orada olduğunu, sonra Salyana getdiyini yazırdı (РГВИА, ф.52, оп.1, д. д. 286, ч. 1, v.61).

Fətəli xan şimal-qərbi Azərbaycan torpaqlarını-Qarabağ və Gəncə xanlıqlarını, Qazax, Borçalı və Şəmşəddil sultanlıqlarını da öz dövlətinə birləşdirmək niyyətində olan Fətəli xan 25 minə qədər döyüşçü toplayaraq nəinki Qarabağ xanlığının, eləcə də onun müttəfiqi II İraklinin müqavimətini qırmaq istəyirdi (РГВИА,

ф.52, оп.1, д. д. 286, ч. 1, v.34). Hazırlanmış plana görə əvvəlcə eyni zamanda həm Qarabağ, həm də Gəncə xanlıqlarına zərbə endirilməli idi. Ancaq Qafqazdakı rus qoşunlarının komandanlığı Fətəli xandan öz niyyətindən əl çəkməyi qəti surətdə tələb etdi və xan geri çəkilməli oldu (Абдуллаев, 1958, 108-112).

1783-cü il aprelin 6-da knyaz Qriqori Potyomkin gen. P. Potyomkinə onun komandasına verilmiş korpusla Dərbəndi zəbt etməsi barədə göstəriş verdi (РГАДА, ф.23, д. 13, ч. IV, v.26-27). Mayın 19-da generala yeni məxfi order göndərən knyaz həmin göstərişi yenidən təsdiqlədi və həm də Fətəli xanın özünü tutmağı tövsiyyə etdi. Bu məqsədlə digər xanların ona qarşı qəzəbindən istifadə etmək, onlara imkan vermək lazım idi ki, Fətəli xana zərbə vursunlar. Q. Potyomkin hətta hələlik İbrahimxəlil xanın devrilməsi fikrindən əl çəkərək ondan Fətəli xana qarşı mübarizədə istifadə etməyi təklif edirdi.

1783-cü il Krımı Rusiyaya ilhaq edən II Yekaterina elə həmin il Kartli-Kaxet çarlığının Rusiya himayəsinə qəbul edilməsi barədə də fərman verdi noyabr ayında rus qoşunu Tiflisə daxil oldu (Левиатов, 1948, 142).

Hələ 1783-cü ilin mayında ruslar Şimali Qafqazdan Gürcüstana gedən yolu düzəltməyə başladılar. 1784-cü ilin yazında bu yolun başlanğıcında Vladikavkaz (Qafqaza yiyələn) rəmzi adı verilən qala inşa edildi (Левиатов, 1948, 142). Bu isə Rusiyanın Qafqaza dair uzağa gedən göstəricisi idi. **Bu səbəbdən də rus hökuməti Fətəli xanın Azərbaycanıə vahid dövlətdə birləşdirməsinin qəti əleyhinə idi.** Rus hökumətinin gizli niyyətlərindən məlumatı olmayan Fətəli xanın nəzərləri Cənubi Azərbaycanda ilk növbədə mühüm hərbi-strateji əhəmiyyətə malik Ərdəbil xanlığına yönəlmişdi. Həm də Ərdəbil şəhəri ölkənin cənubunda böyüklüyünə görə Təbrizdən sonra ikinci şəhər idi. Eyni zamanda bunu da qeyd etmək lazımdır ki, Fətəli xan Ərdəbil xanlığını və digər cənub xanlıqlarını tabe etməklə kifayətlənmək niyyətində deyildi. Onun daha uzaqgörən planları var idi. Quba hakimi Rusiya ilə ittifaqda öz əlaltısı yalançı şahzadə Abbas Mirzəni şah taxtına oturtmaq istəyir, hər vasitə ilə öz namizədinin şah II Təhmasibin oğlu olduğunu sübut etməyə çalışırdı. Fətəli xanın təklifi və təsiri ilə İsfahan, Qəzvin və Nəcəfin ali ruhaniləri Abbas Mirzəni tanıdıqlarını və ona tabe olacaqlarını təsdiq edən sənədə imza atıb, möhürlərini basmışdılar (Левиатов, 1948, 120).

Yəqin ki, Fətəli xan anlayırdı ki, ya Ağa Məhəmməd xan Qacar, ya da Əlimurad xan şah taxtına yiyələnsələr ona Cənubi Azərbaycan torpaqlarını birləşdirməyə imkan verməyəcəklər. Abbas Mirzəni taxta oturtmaqla o, ölkənin cənubunu ələ keçirmək vəzifəsini asanlaşdırmış olurdu. Digər yandan Fətəli xan güman edirdi ki, Qsmanlı imperiyası, eləcə də İngiltərə və Fransa Ağa Məhəmməd xan Qacarın, ya da Əlimurad xanın tərəfindən çıxış edə bilərlər. Buna görə də o, özünü Rusiyanın regiondakı maraqlarının müdafiəçisi kimi göstərməklə sonuncunun dəstəyinə nail olmaq istəyirdi.

Rus hökümətini Abbas Mirzənin taxta çıxarılmasının vacibliyinə inandırmaq üçün Fətəli xan öz elçisi Mirzə Sadıq Məmmədvəliyevi Rusiyaya göndərmişdi.

Rus hakimiyyət dairələri Abbas Mirzənin taxt-taca iddiasının əsaslılığına şübhə ilə yanaşsalar da uzun müddət bunu büruzə vermir, Fətəli xanın planına münasibətlərini açıqlamırdılar. Rus hökümətinin gizli niyyətlərindən xəbərsiz olan Fətəli xan cənuba yürüşə ciddi hazırlaşdı. Əvvəlcə o, öz arxasını təhlükəsiz etmək qərarına gələrək 1784-cü ildə Ağası xana kömək edən qarabağlı İbrahimxəlil xana qarşı yeni yürüş etdi, Ağdamı və Qarabağın demək olar ki, bütün düzən hissəsini var-yoxdan çıxardı. Şəkili Əbdül Qadir xan[1774-cü ildə Hüseyn xanı öldürən Əbdülqədir xan Hüseyn xandan fərqli olaraq Fətəli xanla müttəfiqlik münasibətləri yaratmışdı. Bax: (Левиатов, 1948, 149-150) da bu yürüşdə iştirak edirdi. İbrahimxəlil xan yanında olan şəkili Hüseyn xanın oğlu Məhəmməd Həsən ağanı Cara göndərdi. Sonuncu oradan carlıların köməyilə yürüşdən qayıdan Əbdül Qədirə həmlə etdi və məğlubiyyətə uğrayan Hacı Əbdül Qədir xan Ağası xanın yanına Əlvənd adlı yerə qaçdı. Məhəmməd Həsən xanın tələbiylə Ağası xan Əbdül Qədiri ona verdi. Əbdül Qədir öz yeddi oğlu ilə birlikdə qətlə yetirildi (Fateh, 1958, 19; Бакиханов, 1991, 165).

Rəqiblərini qabaqlayıb onlara öz qüvvələrini cəmləməyə imkan verməmək üçün Fətəli xan rus hököməti ilə danışıqların nəticələrini gözləməyərək cənuba yürüş təşkil etdi.1784-cü ilin

may ayında o, vassallarının və müttəfiqlərinin qoşunları ilə birlikdə hərəkət edib Ərdəbili, sonra da Meşkini aldı. Qoşunların ön dəstələri cənuba hərəkəti davam etdirdilər (РГВИА, ф.52, оп.1, д.131, v.31; Бутков, 1803, II his.,140-141; Абдуллаев, 1958, 123).

Fətəli xanın cənuba yürüşü nəinki İrandakı şahlığa iddiaçıları, eləcə də Cənubi Qafqazın və Dağıstanın bir sıra feodal hakimlərini narahat etdi. Qaraqaytaq usmisi, Avar xanı və Cənubi Dağıstanın bəzi hakimləri Dərbənd və Qubaya zərbə endirməyə hazırlaşmağa başladılar. Qarabağlı İbrahimxəlil xan və Ərdəbildən qovulmuş Nəzərəli xan da öz qoşunlarını toplayıb Ərdəbil istiqamətində hücuma keçdilər. Xoylu Əhməd xan da onlara yardıma 3 min nəfərlik dəstə göndərmişdi (Абдуллаев, 1958, 123-124).

II İrakli də yürüşə açıq düşmən münasibətini göstərib rus hökümətini inandırmağa çalışdı ki, guya Fətəli xan axısxalı Süleyman paşa ilə əlaqədə hərəkət edir (Абдуллаев, 1958). İrəlidə qeyd etdiyimiz kimi Azərbaycanda vahid dövlət yaradılması II Yekaterinanın siyasi niyyətlərinə uyğun gəlmirdi. Buna görə də knyaz Q.A.Potyomkin 1785-ci ilin fevralında Fətəli xandan Cənubi Azərbaycanı tərk etməyi tələb etdi (Бутков, 1803, II his., s.141; Левиатов, 1948, 144). Fətəli xan başladığı uğurlu yürüşü dayandırıb geri qayıtmağa məcbur oldu.

**II İrakli ilə sövdələşmə.** Rusiyanın və onun Qafqazdakı əlaltısı II İaraklinin müqaviməti üzündən Cənubi Azərbaycana, və Azərbaycanın bir sıra digər bölgələrinə aid niyyətlərini gerçəkləşdirməyə nail olmayan Fətəli xan manevr etmək qərarına gəldi.1785-ci ilin əvvəllərində Fətəli xan II İrakliyə görüşə hazır olduğunu bildirmiş, lakin bu zaman təhlükəsizliyinin təmin olunması üçün girovlar istəmişdi. İrakli Qarabudaqda görüşməyi təklif etmiş, lakin girov verməkdən imtina edib bununla əsaslandırmışdı ki, bu yerlərin ağası ruslardır. İrakli həm də eyham vurmuşdu ki, əgər Fətəli xan qarabağlı İbrahim xana qarşı getmək istəsə çar qılıncını Quba xanlığına qarşı çevirəcək (РГАДА, ф.15, д. 197, v.4 a.ü.). Fətəli xan İbrahimxəlil xanın kiçik qardaşı Mehrəli ağanı hakimiyyətə gətirmək istəyirdi. II İrakli gürcü knyazı Qarsevana yazırdı ki, Fətəli xan bu təklifin müqabilində Gəncənin İraklinin nəzarəti altına keçməsinə razıdır. Fətəli xan İraklinin yanına Mirzə Mikayıl adlı bir şəxsi göndərmişdi. İrakli nümayəndəyə bildirmişdi ki, P.S. Potyomkinlə məsləhətləşməmiş heç bir cavab verə bilməz (РГАДА, ф.15, д. 197, v.4 a.ü.).

Fətəli xan yenidən Cənubi Azərbaycana öz təsirini yaymaq fikrinə düşdü. Knyaz Q.Potyomkin 10/21 dekabr 1786-cı il tarixdə Kremençuqdan II Yekaterinaya məlumat verirdi ki, gen. Potyomkin ona yazmışdır ki, Azərbaycan xanları və xüsusən Dağıstan hakimləri Fətəli xanın əlaltısı olan Abbas Mirzənin şah seçilməsinə mane olacaqlar. Bu dövrdə Abbas Mirzə Bakıda Fətəli xanın nəzarəti altında idi (РГВИА, ф. 52, оп. 2, д. 32, v.138).

Dərbənddən verilən məlumatda göstərilirdi ki, Fətəli xan öz namizədini şah elan etmək üçün Ərdəbilə yollanmaq istəyir. Gen. Potyomkin kn. Potyomkindən soruşurdu ki, əgər doğrudan da Abbas Mirzə şah elan olunsa o, bu məsələyə necə münasibət göstərsin (РГВИА, ф. 52, оп. 2, д. 32, v.138 a.ü.).

Noyabrın 27 (dekabrın 7-də)-də Fətəli xanın təhvil verdiyi Aleksandr Bakarovu Həştərxana gətirən mayor Komarski Fətəli xanın qoşun toplayıb Qaraqaytaq hakimi və usmi ilə birləşib, digər hakimləri də cəlb etməklə Abbas Mirzəni şah elan etmək fikrində olduğunu təsdiq etmişdi (РГВИА, ф. 52, оп. 2, д. 32, v.138).

Fətəli xanın elçisi Mirzə Sadıq yazırdı ki, əgər rus hökuməti xanın köməyinə bir-iki alay göndərsə xan bütün İranı, hətta Hindistan sərhəddinə kimi torpaqları tuta bilər (РГВИА, ф. 52, оп. 2, д. 32, v.186).

Fətəli xan Azərbaycanı birləşdirmək işində Rusiyanın dəstəyini qazanmaq, yaxud heç olmasa onu bitərəfləşdirmək istəyirdi.

P.S.Potyomkin G.Potyomkinə göndərdiyi 20 yanvar (8 fevral) 1787-ci il tarixli raportunda yazırdı ki, Fətəli xanın nümayəndəsi Hacı İbrahimi geriyə – Salyana yola salmışdır. Hacı İbrahimlə danışıqdan məlum olmuşdur ki, Fətəli xan deyəsən şamxal və avar xanı ilə eyniləşdirilməmək, gürcü çarı İrakliyə verilmiş hüquqlar əsasında Rusiya himayəsinə girmək istəyir (РГВИА, ф. 52, оп. 1, д.416, ч. 1, v.262).

1787-ci ilin iyununda göndərdiyi raportunda gen. Potyomkin Fətəli xanın öz məmuru Mirzə Sadıqla imperatriçənin himayəsinə qəbul olunması barədə ərizə və knyaz Potyomkinin adına məktub göndərdiyini yazırdı. Fətəli xan II

Yekaterinadan özünün təbəələri ilə birlikdə gürcü çarının və təbəələrinin qəbul olunduğu şərtlələ himayəyə qəbul olunmasını xahiş edirdi. [41,v.290-291]. Knyaz Potyomkin kansler qraf Bezborodkaya Fətəli xanın kral adı almaq istədiyini yazırdı (РГВИА, ф. 52, оп. 1, д. 481, v.91).

Yeni yaranmış şəraitdə Fətəli xanın cənuba yürüşü Rusiya üçün sərfəli olardı, çünki Fətəli xanla Ağa Məhəmməd xan toqquşar, beləliklə də hər ikisi zəifləyər, Rusiyanın regionda möhkəmləsinə mane ola biləcək ciddi qüvvə qalmazdı. Osmanlı imperiyası ilə yeni müharibənin yaxınlaşması və Ağa Məhəmməd xan Qacarın hücum təhlükəsinin yaranması da II İraklini də Fətəli xanla yaxınlaşmağa vadar edirdi. P.S.Potyomkin 1786-cı ilin sonlarında Fətəli xana məktub yazıb onu Ağa Məhəmməd xan Qacarın hücum təhlükəsi ilə əlaqədar II İrakli ilə barışmağa çağırırdı (РГВИА, ф. 52, оп. 1, д. 481, v.91; РГВИА, ф. 52, оп. 1,д. 336, ч. IV, v.225).

1788-ci ilin əvvələrində Fətəli xan Azərbaycan torpaqlarını birləşdirmək yolunda səylərini yenidən gücləndirdi. O, Qarabağa yeni hücum üçün ordu toplamağa başladı (РГВИА, ф. 52, оп. 1, д. 481, v.99). İbrahimxəlil xanın qohumu Ömər xan bundan qəzəblənərək qəflətən Ağsuya hücum edib 9 ay onu mühasirədə saxlamışdı. Yalnız Rusiyanın müdaxiləsi və Fətəli xanın müəyyən güzəştlərə getməsi nəticəsində Ömər xan geri döndü (Бакиханов, 1991, 166-167; Бутков, 1803, 278).

Rusiyanın dəstəyinə nail olmaq və II İraklini bitərəfləşdirmək üçün Fətəli xan gürcü çarını görüşə dəvət etdi və ona Cənubi Azərbaycana və İrana birgə yürüş etməyi təklif etdi. İki hökmdar Şəmkir çayının sol sahilində görüşdü. Görüşdə çarın zəbt etdiyi keçmiş Şəmşəddin sultanlığının ərazisinin Gəncə xanına qaytarılması barədə razılıq əldə edildi (Hacinski, 1959, 28-29). Tərəflər qərara aldılar: Gürcüstan çarı Cənubi Qafqazda «asayişi qorusun» (yəni bu region onun nəzarətinə verilir) Fətəli xan isə gələn il Cənubi Azərbaycana hərəkət etsin (Бакиханов, 1991, 28-29; Hacinski, 1959, 26-27).

**Fətəli xanın ölümü və Azərbaycanı birləşdirmə siyasətinin uğursuzluğu**. II İrakli ilə görüş zamanı Fətəli xan qəfil xəstələndi. Şamaxıya qayıdan zaman xəstəliyi şiddətləndi. Xan tələsik Bakıya bacısı Xədicə Bikənin yanına getdi. Fətəli xanın II İrakli tərəfindən zəhərləndiyi də güman edilir. O, burada 1789-cu ildə martın 22-də 58 yaşında ikən vəfat etmişdir (Бакиханов, 1991, 169).

Fətəli xan Azərbaycan tarixində özünəməxsus iz buraxmış, görkəmli şəxsiyyətlərdən biri olmuşdur. Görkəmli Azərbaycan tarixçisi A.Bakıxanovun yazdığı kimi ölümünə yaxın bütün Şərqi Qafqaz Fətəli xanın təsiri altında idi. Qaradağ, Təbriz və digər yerlərin xanları onun himayəsinə nail olmağa çalışırdılar. Yalnız Qarabağlı İbrahimxəlil xan güclü istehkamlara arxalanaraq ona tabe olmaq istəmirdi (Бакиханов, 1991, 168).

Fətəli xanın birləşdirmə siyasətini başa çatdıra bilməməsinin səbəblərindən biri də hələ ölkədə birləşdirmə siyasətinin müvəffəqiyyətini təmin edə biləcək qüvvələrin olmaması idi. XVIII əsrdə Azərbaycan ticarəti tənəzzül etmişdi. Daimi feodal-ara müharibələri ilə xarici basqınlar ticarətin inkişafına imkan vermirdi.

Fətəli xanın nailiyyətləri iqtisadi zəminə malik deyildi, onun şəxsi istedadının, uğurlarının, gərgin fəaliyyətinin nəticəsi idi. Aydın idi ki, böhranlı xarici siyasi vəziyyət yarandığı, yaxud Fətəli xana bərabər xələfi olmadığı təqdirdə onun qurduğu dövlət dağılmalı idi.

Fətəli xanın ölümündən sonra onun yaratdığı şimal-şərqi Azərbaycanın dövlət birliyi dağıldı. Onun oğlanları (əvvəlcə Əhməd xan, daha sonra isə Şeyxəli xan) yalnız Qubanı və Dərbəndi öz hakimiyyətləri altında saxlaya bildilər.

**Nəticə**

XVIII yüzyılın ikinci yarısında bəzi Azerbaycan xanlarının (Fətəli xan Əfşar, qarabağlı İbrahimxəlil xan, Fətəli xan Qubalı) birləşdirirmə fəaliyyətləri kompleks və tarixi-müqayisəli şəkildə tədqiq olunaraq hər üç xanın birləşdirmə siyasətindəki oxşar və fərqli cəhətlər müəyyənləşdirilmişdir.

Hər üç xan əvvəlcə sadəcə olaraq öz mülklərini genişləndirmək məqsədi güdmüş, onların tabe etdikləri ərazilər genişləndikcə obyektiv olaraq ölkə torpaqlarını birləşdirmək prosesinə çevrilmişdir.Digər iki xandan fərqli olaraq qubalı Fətəli xanın dövləti daha böyük ərazini əhatə etmişdi. Fətəli xan Qubalının birləşdirmə siyasəti daha ardıcıl səciyyə daşımış, o, xeyli

ərazini – demək olar ki, bütün-şimal-şərqi Azərbaycanı öz xanlığı ətrafında toplaya bilmişdi. Bu onun zəmanəsinin görkəmli dövlət xadimi, bacarıqlı sərkərdəsi və mahir diplomat olması sayəsində mümkün olmuşdur.

Fətəli xan Əfşar və İbrahimxəlil xan tabe etdikləri xanlıqları xanları özlərindən asılı hala salmaqla kifayətlənlənərək onları ləğv etmirdilər. Fətəli xan Qubalı isə tabe etdiyi xanlıqların bir qismini(Dərbənd, Salyan, Şamaxı) ləğv edərək canişinləri vasitəsilə idarə etmiş, bir növ mərkəzləşmiş dövlətin modelini yaratmışdı.

Urmiya və Qarabağ xanları birləşdirmə təşəbbüslərini həyata keçirərkən şah taxtına namizədlərlə toqquşmuş, Fətəli xan Əfşar Məhəmməd Həsən xan Qacar və Kərim xan Zənd ilə uzun və qanlı döyüşlərdən sonra yenilərək həlak olmuşdur.

Uzaqgörən dövlət xadimi olan Fətəli xan Qubalı gələcəkdə şah taxtına çıxacaq şəxsin onun birləşdirmə fəaliyyətinə mane törədəcəyini anlayaraq şah taxtına öz əlaltısını oturtmaq istəyirdi. 1784-cü ildə “Abbas Mirzə” adlı yalançı şahzadəni taxta çıxarmaq məqsədi ilə Cənubi Azərbaycana uğurlu yürüş etdi. Lakin özü Azərbaycanı zəbt etmək niyyətində olan Rusiyanın və qonşu Dağıstan hakimlərinin hədələri onu geri qayıtmağa məcbur etdi. XVIII əsrin ikinci yarısında ölkəni birləşdirmək prosesi başa çatdırılmasa da dövlətçilik ənənələrinin yaşadılmasında mühüm rolu olmuşdur.

## ƏDƏBİYYAT


Azərbaycan tarixi (3 cilddə). I c. *(Ən qədim zamanlardan XVIII əsrin sonlarınadək)* (İ.A.Hüseynov, Ə.S.Sumbatzadə və başqalarının redaktəsi ilə) Bakı:1961.

Azərbaycan tarixi. *(Uzaq keçmişdən 1870-ci illərə qədər.)* Suleyman Əliyarlının redaksiyası ilə. Bakı, 1996.

Hacinski İsgəndər bəy. *Qubalı Fətəli xan*. (Tərcüməçi F.Babayev). Bakı, 1959.

Fateh Kərim Ağa. *Şəki xanlarının müxtəsər tarixi. (*Şəki xanlığının tarixindən.) Bakı-1958.

Mustafazadə Tofiq. *Quba xanlığı*. Bakı: 2005

Fərzəlibəyli Şahin. *Quba tarixi*. Bakı-2001.

Джафаров А. *Присоединение Ширванского ханства к России и восстановление города Шемахи*. АКД, Баку:1955.

Архив Государственного Совета. *Протоколы Совета в царствование Екатерины II*, т.1,ч.2;т.2.СПб.:1869,1888.

АВПРИ (Архив Внешней Политики России Империи Российской при МИД РФ), фонд 77 (Сношения России с Персией), опись 1,1767 г., дело 3

АВПРИ, ф.77, оп. 1, 1767 г., д. 9

АВПРИ, ф.77, оп. 1, 1768 г., д. 12

АВПРИ, ф.77(СРП), оп.1, 1768 г., д. 17

АВПРИ, ф.77(СРП), оп.1, 1769 г.,, д. 1

АВПРИ, ф.77(СРП), оп. 1, 1775 г., д. 15

АВПРИ,ф.77(СРП), оп. 5, д. 16

АВПРИ, ф. 77(СРП), оп.5, д. 17 (1767-1774)

АВПРИ, ф. (СРП),оп.5, д. 8(1765 – 1797гг.), д. 15

АВПРИ, ф. 77(СРП), оп. 6, д. 478

АВПРИ,Ф.77(СРП), оп.6, д. 481

АВПРИ, ф.77(СРП), оп. 6, д. 482

АВПРИ, ф.77(СРП), оп. 7, д. 119

Ахвердов А.И. *Краткое описание кавказских народов. История, география и этнография Дагестана*. Махачкала:1958, сс.150-175.

Абаскули Ага Бакиханов. *Гюлистани-Ирам (Редакция, комментарии, примечания и указатели акад.З. М. Буниятова)*. Баку: 1991.

Серебров А.Г. *Историко-этнографическое описание Дагестана.1796 г.* ИГ и ЭД.М:1958, сс.173-196.

Левиатов Вадим. *Очепки из истории Азербайджана в XVIII веке*. Баку:Изд. АН Азерб.ССР,1948

Алкадари Гасан Эфенди. *Асари Дагестан*. Махачкала: 1929.

Абдуллаев Гаси. *Азербайджан в XVIII веке и взаимоотношения его с Россией*. Баку: 1965.

Абдуллаев Гаси. *Из истории северо-восточного Азербайджана в 60-80- е гг.* XVIII века. Баку:1958

Абдуллаев Гаси. *Иранские происки против Кубинского ханства и Картли-Кахетинского ханства в 1776 и 1778 гг.* Известия АН Азерб.ССР,1960, № 4.

Бутков Петр. Выдержки из «*Проекта отчета о персидской экспедиции в виде писем»*. ИГ и ЭД,сс. 200-208.

Бутков Петр. *Материалы для новой истории Кавказа с 1722 по 1803 гг*., ч.1-2

Козубский Евгений. *История города Дербента. Темирхан-Шура:* 1906,с.91.

*Обозрение российских Обозренвладений за Кавказом, в статистическом, этнографическом и финансовом отношениях.* ч. 1, СПб. : 1836

Маркова Ольга. *Россия, Закавказье и международные отношения в XVIII веке.* Москва:1966

ПФАРАН (*Петербургский Филиал Архива Российской Академии Наук)*, ф.3/394, д.20

ПФАРАН, ф.89, оп.2, д. 41, сс.10-198, 126-132,139-142.

Протоколы Верховного Тайного Совета.1726 г. Москва: 1858

РГАДА, ( Российский Государственный Архив Древних Актов), ф. 23, д. 13, ч. 3

РГАДА, ф.15, д. 197

РГАДА, ф.23, д. 13, ч. IV

РГВИА, ф. 52, оп. 1, д. 481

РГВИА, ф. 52, оп. 1, д.416, ч. I

РГВИА, ф. 52, оп. 2, д. 32

РГВИА, ф. 52, оп. 1,д. 336, ч. IV

РГВИА,ф. 52, д. 288

РГВИА, ф.52, оп.1, д. д. 286, ч. 1

РГВИА, ф.52, оп.1, д. 331,ч.I

РГВИА, ф.52, оп.1, д.131

РГВИА,ф. 1846, дело 18474

Anl.az/down|meqale|xalqcebhesi|2016|may|490390/htm/ Müraciət tar.2412.22

## Summary

**Tofig Mustafazadeh**

### Fatali Khan Gubinsky`s unification policy

In the article, based on archival materials, some of which are being introduced into scientific circulation for the first time, the author analyzes the unification policy of Fatali Khan Gubinsky. It is shown that, unlike the Urmian ruler Fatali Khan Afshar and Ibrahimkhalil Khan of Garabagh, the unification policy of the Fatali Khan Gubinsky was more consistent; he was able to unite almost all of northeastern Azerbaijan around his khanate. At the same time, Fatali Khan Guba created a model of a centralized state. Being a far-sighted statesman, the Guba Khan understood that if any other pretender to the throne were to ascend, difficulties would arise for his plans, so he tried to put his pretender-imposter Abbas Mirza on the Shah's throne and even undertook a campaign to Ardabil for this purpose. Only the negative reaction of Russia forced him to stop his campaign.

Although the unification policy of the Azerbaijani khans was not crowned with success, it still played a certain role in the continuation of the traditions of Azerbaijani statehood.

***Key words:*** *Azerbaijan, Fatali Khan Gubinsky, Ibrahimkhalil Khan, Fatali Khan Afshar, "Abbas Mirza"*

## Резюме

**Тофик Мустафазаде**

### Объединительная политика Фатали Хана Губинского

В статье на основе архивных материалов, часть из которых впервые вводятся в научный оборот, автор анализирует объединительную политику Фатали хана Губинского. Показано, что в отличие от урмийского правителя Фатали хана Афшара и Ибрагимхалил хана Гарабагского объдинительная политика Губинского хана носила более последователный характер, он смог обьединить почти весь северо-восточный Азербайджан вокруг своего ханства. При этом Фатали хан Губинский создал модел централизованного государства. Будучи дально-

видным государственным деятелем губинский хан понимал, что в случае возшествия какого-либо другого претендента на престол возникнет трудность для его планов, поэтому старался посадить на шахский трон своего претедента-самозванца Аббаса Мирзу, даже предпринял с этой целью поход в Ардебиль. Только негативная реакция России вынудило его прекратить свой поход.

Хотя объединителная политика азербайджанских ханов не увенчалась успехом, но все же сыграла определенную роль в продожении традиций азербайджанской государственности.

***Ключевые слова:*** *Азербайджан, Фатали хан, Губинский, Ибрагимхалил хан, Фатали хан Афшар, "Аббас Мирза"*